

Milli azadlıqdan
şirin nemət yoxdur!

# Qlobal təhlükəsizliyin təmini prosesinə 30 illik sədaqət




Bax səh. 3


YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
04 may 2024-cü il, şənbə
№ 078 (6664)
Qiymәti 60 qәpik




# Heç kəs unudulmur, heç nə yaddan çıxmır!

Bax səh. 2

# Cənubi Qafqazın iqtisadi güc mərkəzi



Bax səh. 3

# Bakı Forumu başa çatıb

Bax səh. 3

## Parlament seçkilərinin vaxtı...

2024-cü il ölkəmizdə bir sıra siyasi hadisələrlə müşayət olunacaq. İlin əvvəlində baş tutan prezident seçkiləri ilə yanaşı, bu il həm də parlament seçkiləri ilidir. Azərbaycan Konstitusiyasının V fəslinin 84-cü maddəsinin ikinci bəndində göstərilir ki, Azərbaycan Respublikası Milli Məclisinin hər çağırışının seçkiləri hər beş ildən bir noyabr ayının birinci bazar günü keçirilir. Başqa sözlə, parlament seçkiləri 2024-cü ilin noyabrın 3-nə təsadüf edir. Amma nəzərə alsaq ki, noyabr ayında ölkəmizdə daha bir qlobal xarakterli tədbir - COP29 baş tutacaq, parlament seçkilərinin vaxtının dəyişdirilməsi məsələsi də aktuallaşa bilər. Zaman-zaman bununla bağlı istər cəmiyyətdə, istərsə də mediada müxtəlif fikirlər səsləndirilir. MSK-nın mayın 2-də keçirilən iclasında çıxış edən MSK sədri Məzahir Pənahov bildirib ki, Mərkəzi Seçki Komissiyası artıq parlament seçkilərinə...

Bax səh. 4



Bax səh. 4

## Türk dövlətlərinin iqtisadi hədəfləri...

Bakıda mayın 2-3-də keçirilən "Türk Dövlətləri İqtisadi Forumu 2024" türk ölkələrinin iqtisadi inteqrasiyası yönündə daha bir mühüm hadisə kimi xarakterizə edilə bilər. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Türk Dövlətləri Təşkilatı və Yazılım Sənayeçiləri Dərnəyinin tərəfdaşlığı ilə keçirilmiş bu tədbir türk ailəsini bir araya toplamaqla gələcək iqtisadi vizyonun müəyyən edilməsi və strateji proqramların həyata keçirilməsi baxımından yol xəritəsi hesab oluna bilər.

Forumda müzakirə olunan əsas məsələlər türkdilli ölkələr arasında mövcud bazar və investisiya imkanlarının öyrənilməsi və səfərbər olunması, xarici ticarət rejimin asanlaşdırılması, bu coğrafiyanın beynəlxalq mühitə inteqrasiyasının təşkili, xarici investor və şirkətlərin ölkəyə cəlb olunmasına dəstək, türkdilli ölkələr arasında iqtisadi dövriyyənin gücləndirilməsi ilə bağlı olub...

Bax səh. 6

## 38 ölkənin dini liderləri Azərbaycanda...

Ölkəmiz dünyanın humanitar ideya mərkəzlərindən biridir. Bu baxımdan Azərbaycan qlobal məsələlərin müzakirə olunduğu beynəlxalq əhəmiyyətli Zirvə görüşlərinə uğurla ev sahibliyi edir. Multikultural dəyərləri təşviq edən qlobal ideyalarımız bölgənin, həmçinin bütün bəşəriyyətin mənafeyinə xidmət göstərir. Məsələn, bir neçə gün öncə-mayın 1-də Azərbaycanın ev sahibliyi etdiyi VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində Dini liderlərin Bakı görüşünü xüsusi vurğulaya bilərik. Tədbirə dünyanın 30-dan çox ölkəsindən dini liderlərin qatılmışdı.

Mədəniyyətlərarası Dialoq Forumu Prezident İlham Əliyevin təşəbbüsü ilə dünyanın nüfuzlu beynəlxalq qurumları - UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, ICESCO və Dünya Turizm Təşkilatını tərəfdaş kimi cəlb edən yeganə platformadır. Prezidentin müəllifi olduğu, 2008-ci ildən mədəniyyətlərarası dialoqun inkişafını nəzərdə tutan "Bakı Prosesi" beynəlxalq ictimaiyyəti narahat edən humanitar problemlərin dövlət rəsmiləri, ictimai-siyasi xadimlər, dini liderlər, nüfuzlu alim və ekspertlər arasında səmərəli fikir mübadilələrinin aparılmasına əlverişli...

Bax səh. 6

## YAP Həmkarlar İttifaqı Komitəsinin hesabat yığıncağı keçirilib

## "İctimai proseslər media müstəvisində"

Mayın 3-də Bakıda Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə "İctimai proseslər media müstəvisində" mövzusunda forum keçirilib. Tədbirdə Ulu Öndər Heydər Əliyevə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov tədbirdə açılış nitqi ilə çıxış edib. Əhməd İsmayılov bildirib ki, Prezident İlham Əliyev bir qayda olaraq cəmiyyətdə baş verən hadisələr haqqında əsas informasiya qaynaqlarından biri kimi medianın rolunu daim yüksək qiymətləndirib və onun ictimai nəzarət funksiyasına böyük önəm verdiyini həmişə vurğulayıb. Medianın ictimai maraqlardan irəli gələn obyektiv və qərəzsiz məlumat hazırlamaq funksiyasını layiqincə yerinə yetirməsi üçün ölkəmizdə həm ictimai-siyasi, həm də hüquqi zəmində hər cür şərait yaradılıb.

O vurğulayıb ki, bu forum vasitəsilə Azərbaycan mediasının müasir tələblərindən və inkişaf tempindən irəli gələn tendensiyalar, habelə cəmiyyətin mediadan gözləntiləri baxımından yeni bir təcrübənin əsası qoyulur. "İctimai proseslər media müstəvisində" mövzusuna həsr edilən forum həm dövlət-media dialoqunun səmərəli təşkilinə, həm də medianın cəmiyyəti ictimai əhəmiyyətli informasiya ilə təmin etmə funksiyasının daha effektiv səviyyəyə yüksəldilməsinə hesablanıb. "Praktik əhəmiyyət daşıyan dövlət-media dialoqunun yaradılması, eyni zamanda, cəmiyyətin sosial sifarişi kimi meydana çıxıb. İctimai rəydə dezinformasiya vakuumunun yaranmaması, ölkəmizin informasiya mühitinin çirkləndirilməsinin qarşısının alınması baxımından dövlət-media dialoqunun peşəkar...

Bax səh. 5

## Gürcüstan yol ayrıcında

Qonşu Gürcüstanda hadisələr, necə deyərlər, pis ssenari üzrə irəliləməkdədir. Parlament uzun sürən müzakirələrdən sonra mübahisəli "Xarici təsirin şəffaflığı haqqında" qanun layihəsini ikinci oxunuşda qəbul edib. 83 deputat qanun layihəsinin lehinə, 23 deputat isə onun əleyhinə səs verib. Qanun layihəsinin yaxın iki həftə ərzində yekun 3-cü oxunuşda qəbul ediləcəyi gözlənilir. Parlament qanun layihəsini ikinci oxunuşda qəbul etdikdən sonra ölkədə hakim komanda ilə müxalifət arasında qarşıdurmalar daha da artıb. Tbilisinin küçələrində, xüsusilə də parlament binasının qarşısında, Rustaveli prospektində davamlı mitinqlər keçirilir. Verilən məlumatlara görə, mitinqlər zamanı dinc toplaşmaq haqqında qanunu pozan və müxtəlif xarakterli zorakılıqlara əl atan etirazçılar saxlanılıb. Eyni zamanda, parlamentdə "sarı təhlükəsizlik" səviyyəsi qüvvədədir.

Təbii ki, son günlərdə Tbilisidə parlament binasının qarşısına, Rustaveli prospektinə toplaşan etirazçıların hamısını siyasi müxalifət qismində təqdim etmək mümkün deyil. Mitinqə toplaşanların böyük əksəriyyətini qeyri-hökumət təşkilatlarının nümayəndələri təşkil edirlər. Bunun məntiqi başadüşüləndir. Minlərlə insanı, xüsusilə də gəncləri siyasi məsələlərdən daha çox dərəcədə, müzakirələri aparılan qanun layihəsinin qəbulundan sonra onların maliyyə mənbələrinin nəzarətə...

Bax səh. 6



## Makron Ai-ni parçalayır...

Bax səh. 7

## Kapitoli öz qazdığı quyuya düşür...

Bax səh. 6-7

# İki ölkə arasında dostluq münasibətləri uğurla inkişaf edir

## Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının energetika nazirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də Səudiyyə Ərəbistanı Krallığının energetika naziri Şahzadə Əbdüləziz bin Salman Əl Səudu qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Səudiyyə Ərəbistanı Krallığı arasında dostluq münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən enerji sahəsində uğurla inkişaf etdiyi bildirildi.

Söhbət zamanı ölkələrimizin OPEC+ çərçivəsində əməkdaşlığının önəmi vurğulandı.

Azərbaycan ilə Səudiyyə Ərəbistanı Krallığının aparıcı "ACWA Power" şirkəti arasında ölkəmizdə bərpaolunan enerji sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd edildi və bu sahədə yaxşı potensialın olduğu bildirildi.

Görüşdə COP29-un Azərbaycanda keçirilməsinin əhəmiyyətinə toxunuldu.

# Azərbaycan Prezidenti: Polşanın Cənubi Qafqazı əhatə edən mövqeyini yüksək qiymətləndiririk




Avropa İttifaqı üzv dövləti və Şərq Tərəfdaşlığı proqramının təşəbbüskarı kimi Polşanın bütün Cənubi Qafqazı əhatələyən regional əməkdaşlığı təşviq edən Avropa İttifaqının siyasətinin formalaşmasına xidmət göstərən mövqeyini yüksək qiymətləndiririk.

AZƏRTAC xəbər verir ki, bu fikir Azərbaycan Prezidenti İlham Əliyevin Polşa Prezidenti Andjey Dudaya bu ölkənin Konstitusiya Günü münasibətilə ünvanladığı təbrik məktubunda yer alıb.

Andjey Dudaya və onun simasında bütün Polşa xalqına öz adından və Azərbaycan xalqı adından ən səmimi təbriklərini və xoş arzularını çatdıran dövlətimizin başçısının məktubunda qeyd edilib: "Azərbaycan ilə Polşa arasında dostluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanan əlaqələrin hazırkı səviyyəsi məmnunluq doğurur. İqtisadiyyat, nəqliyyat, mədəniyyət və digər sahələrdə dinamik inkişaf edən əməkdaşlığımız ölkələrimizin və xalqlarımızın mənafelərinə xidmət edir".

Prezident İlham Əliyev əmin olduğunu bildirib ki, Azərbaycan-Polşa əlaqələrinin mövcud potensialının reallaşdırılması, iki ölkə arasında əməkdaşlığın əhatə dairəsinin genişləndirilməsi və yeni məzmunla zənginləşdirilməsi naminə birgə səylər bundan sonra da ardıcıl şəkildə davam etdiriləcək.

# Heç kəs unudulmur, heç nə yaddan çıxmır!

Bu günlərdə Prezident İlham Əliyev həm tarixilik, həm də Azərbaycanın dərinməzmunlu sosial siyasətinin ardıcıllığının və cəmiyyətin bütün təbəqələrini əhatə etməsinin təsdiqi baxımından xüsusi önəm daşıyan növbəti sərəncam imzalayıb. Söhbət dövlət başçısının imzaladığı "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" sərəncamdan gedir. Sərəncamın icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 3,0 (üç) milyon manat vəsait ayrılıb.



## Azərbaycanın dərinməzmunlu sosial siyasəti

Sosial sfera respublikamızın dövlət siyasətinin prioritet istiqamətini təşkil edir. Azərbaycan bütün parametrlər baxımından sosial dövlətdir. Prezident İlham Əliyev müxtəlif auditoriyalar qarşısında dəfələrlə bildirib ki, ölkəmizdə aparılan siyasətin mərkəzində vətəndaşların maraqları dayanır. Müəyyənləşdirilən bu strateji xəttə uyğun olaraq BMT-nin bəyan etdiyi Minilliyin İnkişaf Məqsədlərinə qoşulan və müvafiq hesabatları təqdim edən Azərbaycan son 20 ildə işsizliyi və yoxsulluğu 5 faizədək azaltmaqla mühüm uğurlara imza atıb.

İlk növbədə onu vurğulamaq lazımdır ki, ölkəmizin sosial siyasəti davamlı səciyyə daşıyır. Bu da onunla bağlıdır ki, ardıcıllıqla həyata keçirilən dərinməzmunlu sosial siyasət ölkənin güclü iqtisadi potensialına əsaslanır. Son 20 ildə respublikamızda iqtisadi inkişaf üçün bütün şərtlər təmin edilib, geniş əhatə dairəsinə malik islahatlar aparılıb. Bütün bunlar da son nəticədə ölkəmizin iqtisadi müstəqillliyinin tam təmin olunmasına gətirib çıxardıb. Hazırda respublikamız MDB məkabanında ən rəqabətqabiliyyətli iqtisadiyyata malikdir. Ölkəmiz heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil və qarşıda duran bütün məsələləri öz gücünə həll etmək iqtidarındadır. Son 20 il ərzində ölkəmizdə ümumi daxili məhsul dörd dəfə, büdcə gəlirləri 30 dəfədən çox artıb, xarici ticarət dövriyyəsi on dəfədən çox genişlənib. Ölkənin xarici borcu ilbəil azaldılır. Hazırda respublikamızın xarici borc öhdəliyi ümumi daxili məhsulun 10 faizindən də aşağıdır ki, bu da kifayət qədər optimal bir göstəricidir. Paralel şəkildə ölkəyə sərmayə qoyulu getdikcə artır. Dövlət başçımızın bildirdiyi kimi, respublikamızda sərmayə mühiti kifayət qədər münbitdir. Son 20 il ərzində respublikamızda daxili və xarici mənbələrdən müxtəlif istiqamətlərə yönəldilən sərmayələrin ümumi həcmi 300 milyard ABŞ dollarından çoxdur və onlardan 190 milyard dolları qeyri-enerji sektoruna yatırılıb.

Belə dinamik iqtisadi inkişafın nəticəsi olaraq ötən 20 ildə dövlət büdcəsinin illik sosial müdafiə və sosial təminat xərcləri 20 dəfədən çox artıb. Ölkədə minimum əməkhaqqı 38 dəfə artırılaraq 345 manata, minimum pensiya 14 dəfə artırılaraq 280 manata çatdırılıb. Orta aylıq əməkhaqqı 12 dəfə artaraq 925,3 manata, orta aylıq pensiya 18 dəfə artaraq 435 manata, yaşa görə orta aylıq pensiya 19 dəfə artaraq 466 manata yüksəldilib.

Xüsusilə son beş ildə 4 milyon vətəndaşı əhatə edən 4 sosial islahat paketi icra olunaraq minimum pensiya 2,5 dəfə, minimum əməkhaqqı 2,7 dəfə, orta pensiya 2,1 dəfə, sosial müavinət və təqaüd ödənişləri 5 dəfə, median əməkhaqqı 2,1 dəfə, əməkhaqqı fondu 2,6 dəfə artıb. Bu islahatlar üzrə ayrılan illik əlavə vəsaitlər 7 milyard manata çatıb.

## Döyüşlər respublikamızdan uzaqlarda getsə də...

Azərbaycanın sosial siyasətinin ən xarakterik cəhəti ondan ibarətdir ki, ölkəmizdə ədalətli resurs bölgüsü təmin edilir və qayğıya ehtiyacı olan bütün vətəndaşlar, cəmiyyətin bütün təbəqələri dövlət tərəfindən dəstəklənirlər. Dövlət başçısının imzaladığı sərəncam Azərbaycan cəmiyyətinin və dövlətinin çox böyük hörmət bəslədiyi insanları əhatə edir. Yaxşı deyiblər ki, heç kəs unudulmur, heç nə yaddan çıxmır. Düzdür, İkinci Dünya müharibəsində döyüşlər respublikamızdan uzaqlarda gedib. Ancaq Prezident İlham Əliyevin dəfələrlə bildirdiyi kimi, Azərbaycan bizim ümumi qələbəmizə sanballı töhfə verib. Müharibənin elə ilk günlərindən bütün Azərbaycan cəmiyyəti faşizmə qarşı mübarizəyə köklənib. Müharibə illərində Azərbaycan xalqı həm ön, həm də arxa cəbhədə çox böyük qəhrəmanlıq və şücaət nümunələri göstərib. Qısa müddətdə respublikada 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi yaradılıb. Azərbaycanın 700 mindən çox igid oğlu və qızı cəbhəyə yollanıb. Respublikamızı təmsil edən diviziyalar Qafqazdan Berlinə qədər şərəfli döyüş yolu keçərək düşmənə sarsıdıcı zərbələr vurublar. Həmvətənlərimizin 130 nəfəri Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 30 nəfəri "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif edilib. Azərbaycandan olan 170 min əsgər və zabit keçmiş SSRİ-nin müxtəlif orden və medalları ilə təltif olunub. İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov, Sovet İttifaqı Qəhrəmanları İsrafil Məmmədov, Aslan Vəzirov, Adil Quliyev, Ziya Bünyadov, Gəray Əsədov, Məlik Məhərrəmov, Mehdi Hüseynzadə, generallar Mahmud Əbilov, Akim Abbasov, Tərlan Əliyarbəyov, Hacıbaba Zeynalov və bir çox başqaları öz şücaətləri ilə xalqımızın tarixinə yeni qəhrəmanlıq səhifələri yazıblar...

İkinci Dünya müharibəsi illərində Azərbaycanda arxa cəbhənin qəhrəmanlığı da hər cür xoş sözə layiqdir. Azərbaycanın da daxil olduğu keçmiş SSRİ-yə qarşı ildırımsürətli müharibə planı hazırlanmışdı. Müharibənin ilk illərində ittifaqın bir sıra şəhərləri və oradakı müəssisələr, o cümlədən də silah-sursat zavodları işğal altında qalmışdı. Belə şəraitdə respublikamızdakı sənaye müəssisələri gecə-gündüz fəaliyyət göstərərək cəbhə üçün zəruri olan müxtəlif məhsullar, həmçinin silah istehsal etməyə başladı. Müharibə illərində Azərbaycan cəbhənin yanacaqla ən mühüm təchizatçısı olub. Faşist Almaniyasının planlarından biri məhz Bakını işğal etmək idi. Təsadüfi deyil ki, Hitlerə təqdim edilən bayram tortunun üzərində "Xəzər dənizi" sözləri yazılmışdı. Əgər neft Bakısı işğala məruz qalsa idi, müharibənin yekunu tamam fərqli ola bilərdi.

Respublikamızda qısa müddətdə iqtisadiyyatı cəbhəyə xidmət istiqamətinə yönəltmək məqsədi ilə böyük işlər aparıldı. Bakı, sözün əsl mənasında, döyüşən ordu üçün silah-sursat istehsalı mərkəzinə çevrilmişdi. Böyük çətinliklərə baxmayaraq, neftçilərimiz qəhrəmanlıq və fədakarlıq göstərir, cəbhəni və sənayeni yanacaqla təmin edirdilər. Akademik Yusif Məmmədəliyevin rəhbərliyi altında aviasiya benzini alınmasının yeni texnologiyası yaradıldı. Neftçilərimizin fədakar əməyi sayəsində Azərbaycan tarixində neft hasilatı üzrə rekord göstərici əldə olundu. 1941-ci ildə respublikamızda 23,5 milyon ton "qara qızıl" çıxarılmışdı. Bu, SSRİ-də çıxarılan bütün neftin 71,4 faizini təşkil edirdi. Bütövlükdə, müharibə illərində Azərbaycan neftçiləri ölkəyə 75 milyon ton neft, 22 milyon ton benzin və digər neft məhsulları veriblər. Statistik məlumatda bildirilir ki, müharibə illərində keçmiş ittifaqda hər beş təyyarədən, tankdan və avtomobildən dördü Bakıdan göndərilən yanacaqla işləyib.

## 3 minə yaxın şəxs birdəfəlik maddi yardım alacaq

Respublikamızda bəlli kateqoriyadan olan insanlara qayğı siyasətinin əsasını Ulu Öndər Heydər Əliyev qoyub. Onun əsasını qoyduğu ənənə son 20 ildə Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Hər il ölkəmizdə 9 May Qələbə Günü ərəfəsində veteranlar üçün mükafatlar ayrılır, onların problemləri həll olunur. Dövlət başçısının imzaladığı yeni sərəncama əsasən, 1941-1945-ci illər İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 2,0 (iki) min manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 1,0 (bir) min manat məbləğində birdəfəlik maddi yardım verilməsi nəzərdə tutulub. Bu sənəd qeyd edilən kateqoriyadan olan vətəndaşlara göstərilən xüsusi qayğının növbəti təzahürüdür.

Sərəncamın ümumilikdə 3 minə yaxın şəxsə şamil olunacağı gözlənilir ki, onlardan 30-u İkinci Dünya müharibəsi iştirakçılarıdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən "Yeni Azərbaycan"a verilən məlumatda bildirilir ki, qurum tərəfindən birdəfəlik maddi yardımlar İkinci Dünya müharibəsi iştirakçılarının və digər müvafiq şəxslərin bank hesablarına köçürüləcək.

**M.ABDULLAYEV**

# "Avropa Komandasının Mina Əleyhinə Təşəbbüsü"...

## Bakıda mühüm tədbir keçirildi



Dünən Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin təşkilatçılığı ilə "Avropa Komandasının Mina Əleyhinə Təşəbbüsü" mövzusunda tədbir keçirilib. Tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri Vüqar Süleymanov, Avropa Komissiyasının Qonşuluq və Genişlənmə danışıqları üzrə Baş direktoru Gert Jan Koopman, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Peter Mixalko və Avropa İttifaqına üzv dövlətlərin ölkəmizdəki səfirləri iştirak ediblər.

**Sülh prosesinə maneə və mədəni irsimizə ziyan...**

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev bildirib ki, bu ay Zəngilanda beynəlxalq mina konfransı keçiriləcək. Hikmət Hacıyev Ermənistanın 30 illik işğalı nəticəsində torpaqlarımızın 12 faizinin minalarla çirkləndiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, mina partlayışları insanların həyatına son qoymaqla bərabər, keçmiş məcburi köçkünlərin də doğma yurdlarına rahat şəkildə qayıtmalarına mane olur.

Hikmət Hacıyev həmçinin qeyd edib ki, Azərbaycan minadan əziyyət çəkən ölkələrdəndir. Mina problemi həm sülh prosesinə mane olur, həm də mədəni irsimizə ciddi ziyan vurur: "Azərbaycan minaların təmizlənməsi prosesində böyük dəstəyə ehtiyac duyur. Bu məsələ Avropanın təhlükəsizliyi üçün də vacibdir".

Hikmət Hacıyev qeyd edib ki, Qoşulmama Hərəkatı çərçivəsində minalardan əziyyət çəkən ölkələrin qrupu yaradılıb və Azərbaycan da bu qrupa daxildir. O, Avropa Komandasının mina əleyhinə təşəbbüsünün əhəmiyyətindən danışarkən Avropa İttifaqının ölkəmizə dəstəyini yüksək qiymətləndirib. H.Hacıyev Aİ-nin yardımın əlaqələndirilməsi və praktiki surətdə həyata keçirilməsi üçün məsləhətləşmələrin vacibliyini də vurğulayıb: "Avropa İttifaqının bu təşəbbüsünün Azərbaycanla Aİ arasında əlaqələrə və ölkəmizin minalarla bağlı apardığı fəaliyyətə töhfə verəcəyinə inanırıq".

**İndiyədək 114 min hektar sahə minadan təmizlənib**

Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov bildirib ki, ərazilərin minalarla çirklənməsi insan həyatına son qoymaqla bərabər, təbiətə də ciddi ziyan vurur: "Keçmiş məcburi köçkünlərin öz evlərinə qayıtmaları üçün ərazilərin minalardan təmizlənməsi işləri prioritet məsələdir".

Azərbaycanın dünyada minadan ən çox əziyyət çəkən ölkələrdən biri olduğunu xatırladan V.Süleymanov ANAMA-nın fəaliyyəti nəticəsində indiyədək 114 min hektar sahənin minalardan təmizləndiyini diqqətə çatdırıb. O, bildirib ki, indiyədək 119 mindən çox partlayıcı maddə tapılıb və bunlardan 31 mini piyada əleyhinədir.

ANAMA-nın rəhbəri Avropa İttifaqının təşəbbüsü ilə qadınlardan ibarət minatəmizləmə qrupunun yaradılmasının yaxşı təşəbbüslərdən biri olduğunu vurğulayıb.

**Aİ Azərbaycanla əməkdaşlığı diqqətdə saxlayır**

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Peter Mixalko isə bildirib ki, Aİ digər məsələlərdə olduğu kimi, mina təhlükəsi sahəsində də Azərbaycanla əməkdaşlığı diqqətdə saxlayır və dəstəyini əsirgəmir: "Biz ANAMA-nın potensialının artırılmasına kömək etməyi, bu məsələdə maarifləndirmə işində Azərbaycana tam gücümüzlə dəstək verməyi davam etdirəcəyik".

Avropa İttifaqı ilə Azərbaycanın güclü və yaxın tərəfdaşı olduğunu vurğulayan Peter Mixalko qeyd edib: "Azərbaycan vətəndaşları münaqişə başlayandan indiyədək çox əziyyət çəkiblər. Ötən müddət ərzində Aİ Azərbaycanın yanında olub və həmişə də olacaq. Hazırda minatəmizləmə məsələsi Azərbaycan üçün əsas prioritetlərdən biridir və biz ölkəyə bu istiqamətdə kömək etməyə hazırıq".

**Qrant yardım 13 milyon avroya çatacaq**

Tədbirdə çıxış edən Avropa Komissiyasının Qonşuluq və Genişlənmə danışıqları üzrə daş direktoru Gert Jan Koopman bildirib ki, Aİ və üzv dövlətlər 2020-ci ildən bəri Azərbaycana 10 milyon avro məbləğində qrant yardımı edib. Bu məbləğin 13 milyon avroya çatacağı gözlənilir: "Bacarıqların artırılması üçün 2 milyon avro qrant ayrılıb. "Team Europe" proqramı çərçivəsində də layihələr barədə düşünürük. Azərbaycanın bu layihəyə marağı olsa, kömək etməyə hazırıq".

Gert Jan Koopman Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər etmək və hər şeyi görmək istədiyini qeyd edib: "Avropa Komissiyası Azərbaycanda mina əleyhinə aparılan işlərdə dəstəyini əsirgəmir. Avropa İttifaqına (Aİ) üzv ölkələr həmrəylik göstərəndə ortaya yaxşı iş qoya bilirik. Biz bu məsələdə daha çox iş görməyə hazırıq".

**Y.BAYRAMOVA**

# Qlobal təhlükəsizliyin təmini prosesinə 30 illik sədaqət

## "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulduğumuz gün...

Cənubi Qafqazın aparıcı dövləti sayılan Azərbaycan nəinki yerləşdiyi regionda, daha böyük coğrafiyada sabitləşdirici amil kimi çıxış etməkdədir. Hər zaman sülh və əməkdaşlıq çağırışları ilə yadda qalan ölkəmiz 30 ilə yaxın işğaldan əziyyət çəkib - bununla belə, bütün dövrlərdə silahlı qarşıdurmaların əleyhinə olub, təhlükəsizlik amilinin daha yüksək səviyyədə önə çıxması üçün çalışıb. Qlobal təhlükəsizlik sahəsində əməkdaşlıq ölkəmizin də təhlükəsizliyi baxımından prinsipial əhəmiyyət kəsb edir. Bu səbəbdən də, Azərbaycanın müstəqilliyinin ilk dövrlərindən başlayaraq ölkənin üzləşdiyi çətinlikləri, regiondakı mürəkkəb vəziyyəti nəzərə alan Ümummilli Lider Heydər Əliyev respublikanın təhlükəsizlik sahəsində beynəlxalq əməkdaşlığa fəal inteqrasiyasını təmin etdi. 1994-cü il mayın 4-də Heydər Əliyevin "Sülh naminə tərəfdaşlıq" çərçivə sənədini imzalanması da qarşılıqlı əməkdaşlıq üçün yeni mərhələnin başlanğıcını qoydu. İmzalanma mərasimində çıxış edən Heydər Əliyev bildirmişdi ki, biz NATO-ya gənc Azərbaycan dövlətinə Qərb dünyası ilə sıx və çoxtərəfli qarşılıqlı münasibətlər yaratmaqda və Qərb dünyasının çox zəngin təcrübəsindən bəhrələnməkdə kömək etməyə qadir olan bir təşkilat kimi baxırıq: "Azərbaycanın, eləcə də digər yeni Avropa dövlətlərinin müstəqilliyinin möhkəmlənməsi NATO-nun bütün fəaliyyətinin əsaslandığı prinsiplərin sarsılmazlığının real təsdiqi olacaqdır".

Vurğulandığı kimi, Azərbaycan həm də NATO ilə hərbi sahədə yaxın tərəfdaşlığa malikdir - ölkəmiz alyansın bir sıra sülhyaratma missiyasında uğurla təmsil olunub. 1994-cü ildən NATO-nun "Sülh naminə tərəfdaşlıq", 2004-cü ildən isə "Fərdi tərəfdaşlıq" proqramlarına qoşulan, 1999-cu ildə NATO Parlament

## Yaxın əməkdaşlıq əlaqələri...

Assambleyasına müşahidəçi, 2002-ci ildən isə assosiativ üzv qəbul edilən Azərbaycan ilə NATO arasındakı münasibətlər praktiki tərəfdaşlığa söykənir. Ölkəmiz ilə qurum arasındakı hərbi əməkdaşlığın əsas istiqamətlərini müdafiə və təhlükəsizlik sektorunda islahatlar, beynəlxalq əməliyyatlarda iştirak, fövqəladə hallara hazırlıq, təhlükəsizliklə əlaqəli olan elmi və ekoloji məsələlər və ictimai diplomatiya təşkil edir. Son dövrlərdə Azərbaycan Silahlı Qüvvələrinin NATO standartlarına uyğunlaşdırılması istiqamətində ciddi addımlar atılıb.




## Sülhə dəstək...

Eyni zamanda, Azərbaycan NATO-nun müxtəlif sülhyaratma missiyalarında uğurla təmsil olunub, fəallıq nümayiş etdirib. 1999-2008-ci illərdə NATO-nun rəhbərliyi ilə Kosovoda keçirilən sülhməramlı və sülhə dəstək əməliyyatlarına qoşulub. Hərbçilərimiz NATO qüvvələri ilə birlikdə, həmçinin İraqda da sülhməramlı missiya həyata keçiriblər, Əfqanıstanda "Qətiyyətli dəstək" əməliyyatlarında iştirak ediblər. Azərbaycan hərbçiləri 2002-ci ildən 2021-ci il avqustun sonunadək Əfqanıstanda xidmət göstəriblər. Məlum hadisələr zamanı hərbçilərimiz Əfqanıstan paytaxtının hava limanını ən axırıncı tərk edənlərdən olublar. Sülhməramlılarımız hava limanında 120 mindən çox insanın təxliyəsinə töhfə veriblər.

Bu ilin martında NATO Baş katibi Yens Stoltenberqin Bakıya səfəri mühüm məqamlarla yadda qalmışdı. Azərbaycan Prezidenti İlham Əliyev NATO-nun Baş katibi Yens Stoltenberqlə görüşdən sonra mətbuata bəyanatında bildirmişdi ki, Azərbaycan-NATO tərəfdaşlığının 30 ildən artıq davam edən uzun tarixi var: "Tərəfdaşlığımız müsbət olmuşdur. Azərbaycan Kosovoda və Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirak edib. Bu, bizim üçün böyük təcrübə olub. 2021-ci il avqustun axırında Əfqanıstanı tərk edən sonuncu müttəfiq qüvvələr bizim hərbi qulluqçularımız olmuşlar. Bu isə bir daha bizim əməkdaşlığımıza güclü sadiqliyimizi nümayiş etdirir".

Bəli, Azərbaycan-ın NATO ilə əməkdaşlığı qlobal təhlükəsizliyin təmini istiqamətində ölkəmizin ortaya qoyduğu mövqedir. Ötən 30 il ərzində dövlətimiz hər zaman bu amili ön sıralarda tutub - Azərbaycan dünyanın hər yerində sülhün və əmin-amanlığın bərpası üçün öz gücünü səfərbər edib. Bu gün Cənubi Qafqazda təhlükəsizlik seqmentinin inkişafı üçün çaba göstərən Azərbaycan yeni şəraitdə bunun mütləq şərtlərini formalaşdırıb. NATO-nun aparıcı üzvü olan Türkiyə ilə strateji əməkdaşlığın imzalanması ilə Azərbaycan NATO ilə əməkdaşlıq əlaqələrini daha yüksək bir səviyyəyə çatdırıb. Bu amil. Azərbaycan ilə NATO arasında münasibətlərdə, qarşıdakı dövr üçün əməkdaşlıqda xüsusi ça-

## Əməkdaşlıqda xüsusi çalarlar...

larlar vəd edir. Azərbaycan özünün milli təhlükəsizlik strategiyasının ayrılmaz tərkib hissəsi olan hərbi təhlükəsizliyinin möhkəmləndirilməsi istiqamətində əsaslı addımları ilə seçilir. Son illər bu sahədə həyata keçirilən davamlı islahatların və məqsədyönlü tədbirlərin nəticəsində Azərbaycan regionda ən güclü orduya malik olan dövlətə çevrilib. Yeni mərhələdə silahlı qüvvələrimiz Türkiyə modelinə uyğunlaşdırılır.

*S.İSMAYILZADƏ*

# Cənubi Qafqazın iqtisadi güc mərkəzi

Azərbaycanın son illərdə sürətli inkişafı onun beynəlxalq aləmdə nüfuzunun artmasına, regionun əsas siyasi aktoruna çevrilməsinə səbəb olmaqdadır. Bu dayanıqlı və möhkəm güc arxitekturası, eyni zamanda dövlətimizin yürütdüyü güclü siyasi iradənin və geridönməz qətiyyətin nümunəsidir. Respublikamızın regionda güc mərkəzinə çevrilməsini şərtləndirən başlıca amillərdən biri iqtisadi müstəqilliyin möhkəmlənməsi, ölkəmizin strateji maliyyə qüdrətinin artmasıdır. Son 20 il ərzində Azərbaycan iqtisadiyyatı nominal ifadədə 14,8 dəfə böyüyərək əsas iqtisadi göstərici olan ÜDM-in həcmi 134 milyard manata çatıb. Dövlət büdcəsinin gəlir və xərcləri 31 dəfə artaraq 1,2 milyard manatdan 36,6 milyard manata yüksəlib. Xarici valyuta ehtiyatları son 20 ildə 47 dəfədən çox artaraq 67 milyard dollara çatıb. Azərbaycanın xarici ticarət əlaqələri qurduğu ölkələrin sayı 124-dən 188-dək və ya 51,6 faiz artıb və xarici ticarət dövriyyəsi 5,2 milyard dollardan 56 milyard dollara yüksəlib. 2003-2023-cü illər ərzində ölkə iqtisadiyyatında əsas kapitala ümumilikdə 300 milyard manat investisiya yatırılıb.

Azərbaycan hazırda Cənubi Qafqaz iqtisadiyyatının lokomotividir. Bu regionda Azərbaycan ÜDM-in həcminə görə, lider və şəksiz sahibidir. Ölkəmizdə ÜDM 68 milyard dollar, Ermənistanda 16 milyard dollar, Gürcüstanda isə 19 milyard dollar təşkil edib. Cənubi Qafqaz iqtisadiyyatının ümumi həcmi 104 milyard dollar təşkil edir ki, onun 65 faizindən çoxu Azərbaycanın payına düşür.

Yaxud, maliyyə-büdcə ehtiyatlarının böyük əksəriyyəti Azərbaycanın sərəncamındadır. 2024-cü il üzrə Cənubi Qafqaz ölkələrinin birlikdə büdcə xərcləri 38 milyard dollar təşkil edir ki, onun 22 milyard dolları və ya 60 faizi Azərbaycanın, qalan 40 faizi 2 ölkənin payına düşür. Bu isə bölgədəki iqtisadi-fiskal mənbələrin əsas mərkəzi kimi Azərbaycanın xüsusi üstün paya malik olduğunu göstərir.

Yaxud, Cənubi Qafqazın strateji valyuta ehtiyatlarının ümumi həcmi hazırda 85 milyard dollar təşkil edir. Ermənistanın strateji rezervləri 6 milyard, Gürcüstanın rezervləri 11 milyard, Azərbaycanın strateji ehtiyatları isə 68 milyard dollar təşkil edir. Cəmi 85 milyard ehtiyatların 80 faizi Azərbaycanın payına düşür.

Cənubi Qafqaz iqtisadiyyatına yatırılmış cəmi investisiyların həcmi 400 milyarddır, onun 300 milyard dolları Azərbaycanın payına düşür, bu regiona yatırılmış xarici sərmayələrin həcmi isə 200 milyard dollara bərabər olmaqla, 160 milyard dolları Azərbaycana yönəldilib. Beləliklə, xarici investorlar Cənubi Qafqazda kapital qoyuluşlarının 80 faizdən çoxunu Azərbaycana etibar edib.

Beləliklə, ötən 20 ildə əldə olunmuş bu mühüm iqtisadi faktorlar ölkəmizin iqtisadi müstəqilliyini möhkəmləndirməklə tam müstəqil siyasət yürüdülməsini də şərtləndirib, nəticədə Azərbaycanın iqtisadi-siyasi gücünün möhkəmlənməsi bölgənin ən inkişaf etmiş və dayanıqlı ölkəsinə çevrilməsini də təmin edib.

## Çoxşaxəli enerji missiyası...

Azərbaycan çoxşaxəli enerji siyasəti yürütməklə bölgədə enerji tranzitlərinin formatını da müəyyənləşdirməyə nail olub. Bakı-Tbilisi - Ceyhan, Bakı-Tbilisi-Ərzurum layihələrini icra edən,TANAP, TAP kəmərlərini reallaşdıran Azərbaycan Cənub Qaz dəhlizinin enerji koridorunu yaradıb. 2020-ci ilə kimi Avropa bazarında etibarlı neft təchizatçısı kimi etibarlı tərəfdaşa çevrilmiş respublikamız son 4 ildə Cənub Qaz Dəhlizinin sonuncu hissəsini - Transadriatik qaz kəmərini (TAP) istifadəyə verməklə faktiki olaraq Avropa İttifaqına qaz təminatında da koalisiyanın aparıcı üzvlərindən birinə çevrildi.

Enerjinin şaxələndirilməsi Avropa regionun 8-dən çox ölkəsinin qaz təchizatının təmin edilməsi və yanacağın illik həcminin artmasına təsir göstərməklə respublikamızın coğrafi mövqeyini də artırmış olub. Belə ki, 2021-ci ildə Azərbaycan Avropa regionuna 8 milyard kub.metr, 2022-ci ildə 11 milyard kub.metr, 2023-cü ildə 12 milyard kub.metr qaz ixrac edilib ki, bu da Azərbaycanı ən etibarlı tərəfdaş kimi Aİ-də etimadını yüksəldib. Proqnozlara əsasən, 2025-2030-cı illərdə ölkəmizin qaz istehdsalı 40% artacaq və Avropaya qaz nəql edən TAP kəmərinin illik gücünün 20 milyard kub.metrədək artmasına səbəb olacaq.

Gerçəklik budur ki, Xəzər regionuna zəngin yanacaq mənbəyi kimi xüsusi önəm verən Avropa İttifaqı məhz Azərbaycanın liderliyi sayəsində bölgənin digər ölkələrini - Türkmənistan, Özbəkistan, Qazaxıstan və hətta İranın da gələcəkdə Cənub Qaz Dəhlizinə qoşulmasını və bununla da təkcə bu mənbədən Avropaya illik 100 milyard kubmetrə yaxın qaz nəqlinin əldə olunmasına çalışır.

Avropa İttifaqının enerji üzrə ekspertləri də etiraf edirlər ki, Azərbaycan Mərkəzi Asiya-Xəzər regionun təşəbbüskar və avanqard ölkəsi kimi bölgənin yanacaq resurslarının Qərbə nəqlində daşıyıcı missiyaya malikdir. Aparılan geoiqtisadi təhlillər onu deməyə əsas verir ki, Xəzər bölgəsinin kifayət qədər irihəcmli yanacaq ehtiyatlarının Qərbə daşınmasında Azərbaycan üzərinə məsuliyyət və yük düşür. Respublikamız təkcə öz ehtiyatlarını deyil, Xəzəryanı ölkələrin də resurslarını Avropaya nəql edə bilər. Bir sözlə, Azərbaycan həm də regionu Qərbə bağlaya biləcək iqtisadi gücdür.



## Bölgənin nəqliyyat arteriyalarının müəllifi...

Regionun enerji-nəqliyyat, tranzit qovşaqlarının sahibi də Azərbaycandır. Asiya və Avropa arasında körpü rolunu oynayan Azərbaycan çoxşəbəkəli regional nəqliyyat layihələrinin təşəbbüskarı və icraçısıdır. Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin əsas arteriyaları olan Şimal-Cənub, Şərq-Qərb, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib. Yenii İpək Yolunun Orta dəhlizlərindən biri Azərbaycandır. Gürcüstanın da təmin olunduğu bölgədəki bütün nəqliyyat arteriyalarının əsas müəllifi və mərkəzi qovşağı ölkəmizə məxsusdur.

Hazırda Yeni İpək Yolu magistralının əsas həlqəsinə çevrilən Zəngəzur dəhlizinin reallaşması ilə Azərbaycan etibarlı tranzit ölkəsi kimi çoxtərəfli beynəlxalq əməkdaşlığa yeni imza atmaqdadır. Zəngəzur dəhlizi Çin və Mərkəzi Asiya ölkələri ilə Avropa ölkələri arasında nəqliyyat əlaqələrinin şaxələndirilməsini təmin edəcək ən qısa dəhlizdir. Bu dəhlizinin istifadəyə verilməsi Azərbaycan üzərindən illik olaraq təxminən 35 milyon ton yükün daşınmasına imkan verə bilər. Bu isə regionda ən nəhəng trans-logistika qovşağının da Azərbaycanda yaradılmasını şərtləndirəcək. Zəngəzur dəhlizinin "Bir kəmər, bir yol" layihəsinə reinteqrasiyası 30-dan artıq ölkənin mənafeyinə xidmət etməklə həm də bölgədə və yaxın region coğrafiyasında yeni geoiqtisadi və geosiyasi meyarları meydana çıxaracaq. Bu baxımdam hazırkı mürəkkəb geosiyasi şəraitdə Şimal-Cənub, Şərq-Qərb, Qafqaz, Xəzər-Qara-Baltik dənizləri hövzələri və Mərkəzi Asiya vektorları üzrə həmahəngliyi təmin etmək, eyni zamanda regional və qlobal xarakterli proseslərin dərin xarakter aldığı xəritədə milli maraq və mənafeləri qorumaq olduqca müdriklik və məharət tələb edir. Məhz buna görə də Azərbaycan Cənubi Qafqazın ən güclü aktoru olaraq Qərbin və Şərqin maraq kəsişməsində özünün tarazlı siyasi iradəsini nümayiş etdirir.

Beləliklə, Azərbaycan Cənubi Qafqazda həm siyasi, həm iqtisadi güc mərkəzi, həm də güclü orduya sahib qüdrətli ölkə kimi dünya birliyində layilqi yerini və mövqeyini möhkəmləndirməkdədir.

*E.CƏFƏRLİ*

# Bakı Forumu başa çatıb

Dünya ictimaiyyəti Azərbaycanın etnik-mədəni və dini müxtəlifliyin tənzimlənməsi sahəsində əldə etdiyi nailiyyətləri yüksək dəyərləndirir. Bu gün bir çox dövlətlər ölkəmizin bu sahədəki uğurlu təcrübəsini öyrənir. 2008-ci ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə başladılmış, mədəniyyətlərarası dialoq sahəsində yeganə qlobal platforma olan "Bakı Prosesi" mənəvi-mədəni dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın təşəbbüsü ilə müxtəlif mədəniyyətlər və dinlər arasında səmərəli dialoqun qurulması məqsədilə irəli sürülmüş və qlobal hərəkata çevrilmiş "Bakı Prosesi" çərçivəsində müntəzəm olaraq Azərbaycanda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Bakı Beynəlxalq Humanitar Forumu, eləcə də Dünya Dini Liderlərinin Sammiti və Birləşmiş Millətlər Təşkilatı Sivilizasiyalar Alyansının Qlobal Forumu təşkil edilir. Mədəniyyətlərarası və dinlərarası dialoqun möhkəmləndirilməsinə böyük töhfə verən və artıq Azərbaycanın dini-mənəvi dəyərlərə dərin ehtiramının ifadəsinə çevrilən bu cür tədbirlər ölkəmizin tolerantlıq mühitinin təbliği baxımından son dərəcə önəmlidir.



Xatırladaq ki, Prezident İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülmüş mədəniyyətlərarası dialoqa dair "Bakı Prosesi"nin tərkib hissəsi sayılan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu ilk dəfə Bakıda 2011-ci ildə, sonra isə 2013-cü, 2015-ci, 2017-ci və 2019-cu illərdə təşkil olunub. Ötən müddət ərzində Forumun coğrafiyası çox genişlənib, tədbirə qoşulan ölkələrin və qurumların sayı xeyli artıb. Forumlara ümumilikdə 10 mindən çox iştirakçı - hökumət rəsmiləri, beynəlxalq təşkilat və institutlardan rəhbər və nümayəndələr qatılıblar. Eyni zamanda, forumlar çərçivəsində 200-dən artıq müxtəlif formatlı və miqyaslı tədbirlər, plenar və panel müzakirələr, təqdimatlar təşkil olunub. Bəşəriyyəti narahat edən qlobal çağırışların diqqət mərkəzinə çevrildiyi ötən beş Forum çərçivəsində aparılan müzakirələr, tərtib edilən sənədlər beynəlxalq təşkilatlar üçün əsas istinad rolunu oynayıb və "Bakı Prosesi" mədəniyyətlərarası dialoqa dair vacib platforma kimi qəbul edilib.

Azərbaycanın mədəniyyətlərarası və dinlərarası dialoq məkanı kimi dünyada tanıdılması istiqamətində görülən tədbirlərin davamı olaraq 1-3 may tarixlərində Bakıda "Sülh və qlobal təhlükəsizlik naminə dialoq: əməkdaşlıq və qarşılıqlı əlaqə" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilib. Forumda 100-dən çox ölkəni təmsil edən 700 qonaq iştirak edib. Yüksək səviyyəli dövlət xadimləri, parlament rəhbərləri, dini liderlər, alimlər, jurnalistlər və müxtəlif etnik və mədəni qrupa daxil olan şəxslərdən ibarət iştirakçılar mənalı dialoq vasitəsilə sülh və qlobal təhlükəsizliyə doğru irəliləyişə nail olmaq üçün bir araya gəliblər. Forumun açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev çıxış edib. Üç gün davam edən Forum zamanı 12 panel müzakirə və 4 plenar sessiya keçirilib. Tədbirdə təhsil, gənclər, iqlim dəyişikliyi, süni intellekt, mədəni irsin mühafizəsi, dini müxtəlifliyin qorunması, qanunsuz miqrasiya və digər məsələlər müzakirə edilib.

Belə ki, Forum çərçivəsində "Çoxtərəfli əməkdaşlığın inkişafında yumşaq gücün tətbiqi: həmrəyliyin möhkəmləndirilməsi və parçalanmaya qarşı müqavimət", "Süni intellekt - təhdid yoxsa imkan?", "Sosial media: mədəniyyətlər və insanlar arasında körpü və ya sədd?", "Peace4Culture Qlobal Çağırışı: Mərkəzi Asiya və Qafqazda BMT-nin Sivilizasiyalar Alyansı (BMTSA) Gənc Sülh Qurucuları Proqramının işə salınması", "Müxtəlifliyin qorunması: Multikultural dünyada problemlərin həlli və qlobal əməkdaşlığın təşviqi", "Münaqişədən sonrakı dövrlərdə mədəniyyətin dirçəldilməsi və qorunması üçün davamlı sülhün təmin edilməsi" mövzusunda toplantılar və digər tədbirlər reallaşdırılıb.



VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində parlamentlərarası konfrans da keçirilib. "Mədəni irsin mühafizəsində qanunvericiliyin rolu: uğurlu təcrübələr" mövzusunda təşkil edilən tədbirin rəsmi açılış hissəsinə Azərbaycan Milli Məclisinin spikeri Sahibə Qafarova sədrlik edib. Konfransda parlamentlərarası əlaqələrin mədəniyyətlərarası dialoq istiqamətində mühüm rol oynadığı diqqətə çatdırılıb. Natiqlər sülh, dinc yanaşı yaşama, qarşılıqlı dialoq istiqamətində güclərin, imkanların birləşdirilməsinin vacibliyini qeyd ediblər.

Bundan başqa, Forum iştirakçılarının Azərbaycanın 30 illik işğaldan azad edilmiş ərazilərinə səfərləri də təşkil edilib. Belə ki, 38 ölkəni və 10 beynəlxalq təşkilatı təmsil edən müsəlman, xristian, yəhudi, buddist, induist və digər dinlərin liderləri və nümayəndələri mədəniyyət paytaxtımız Şuşa şəhərində dini liderlərin Şuşa görüşündə bir araya gəliblər. Görüşdə əvvəlcə Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə çıxış edərək, Azərbaycanın mədəniyyətlər və dinlərarası dialoq və əməkdaşlıq məsələlərinə daim böyük qayğı ilə yanaşdığını bildirib, dinlərarası dialoq və multikulturalizm ideyalarının dünyanın və bəşəriyyətin ümumi sərvətlərindən biri kimi qorunmalı və inkişaf etdirilməli olduğunu qeyd edib.



Sonra BMT Sivilizasiyalar Alyansının Ali nümayəndəsi Migel Anxel Moratinos, Beynəlxalq Müsəlman Ağsaqqalları Şurasının Baş katibi Məhəmməd Əbdül Salam, Misirin baş müftisi Şövqi Əllam, Rusiyanın Baş ravvini Berl Lazar və digərləri Azərbaycan dövlətinin beynəlxalq əməkdaşlığın inkişafına, din-dövlət münasibətlərinin formalaşmasına, sivilizasiyalararası və dinlərarası əlaqələrin möhkəmləndirilməsinə, müxtəlif milli-mədəni dəyərlərin və multikulturalizm ənənələrinin qorunmasına mühüm önəm verdiyini vurğulayıblar. Görüş iştirakçıları, həmçinin müxtəlif mədəniyyətlər və dinlər arasında əlaqələrin genişlənməsinə yönəlik dəyərli fəaliyyət və səylərə, qarşılıqlı etimad mühitinin yaradılması işinə töhfələrinə, VI Bakı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində dini liderlərin Bakı və Şuşa görüşlərinin yüksək səviyyədə keçirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür məktubu ünvanlayıblar. Sonra dünya dini liderlərinin Şuşa Bəyannaməsi yekdilliklə qəbul edilib.

İştirakçılar Prezident İlham Əliyevin müəllifi olduğu "Bakı prosesi"ni alqışlayaraq, cari ilin noyabrında keçiriləcək COP29 - İqlim Dəyişikliyi üzrə Bakı Sammitinin təşkilatçısı Azərbaycan Respublikasına uğurlar diləyiblər. Həmçinin, dini liderlər Şuşada, Xankəndidə, Xocalıda və Ağdamda erməni vandalizminin nəticələri ilə tanış olub, Azərbaycan dövlətinin bu ərazilərdə apardığı bərpa, yendənqurma işlərinin gedişatı barədə məlumatlandırılıblar.

Bütövlükdə, Azərbaycanda mədəniyyətlərarası dialoqun təşviqi məqsədilə həm beynəlxalq, həm də milli səviyyədə həyata keçirilən tədbirlər ölkəmizin qlobal arenada nüfuzunu artırmaqla yanaşı, xalqımızın milli həmrəyliyini daha da möhkəmləndirir və respublikamızı dünyaya mədəniyyətləri qovuşduran məkan kimi təqdim edir.

*Nardar BAYRAMLI*

# YAP Həmkarlar İttifaqı Komitəsinin hesabat yığıncağı keçirilib

Mayın 3-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Həmkarlar İttifaqı Komitəsinin hesabat yığıncağı keçirilib.

Yığıncaqda YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Hikmət Osmanov iştirak ediblər.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.





Sonra yığıncağın gündəliyi barədə məlumat verilib. Gündəliyə YAP Həmkarlar İttifaqı Komitəsinin 25 avqust 2023 - 3 may 2024-cü il tarixlərini əhatə edən dövrdəki fəaliyyətinə dair hesabatı, YAP Həmkarlar İttifaqı Komitəsi Təftiş Komissiyasının həmin dövr üçün hesabatı və Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqının VII qurultayına nümayəndələrin seçilməsi məsələləri daxil edilib. Gündəlik səsə qoyularaq təsdiqlənib.

Daha sonra Yeni Azərbaycan Partiyası Həmkarlar İttifaqı Komitəsinin fəaliyyətinə dair hesabat dinlənilib. YAP Həmkarlar İttifaqı Komitəsinin sədri Məhəmməd Məhərrəmov bildirib ki, partiyanın Həmkarlar İttifaqı Komitəsi hesabat dövründə müxtəlif xarakterli tədbirlər həyata keçirib, işçilərin və onların ailələrinin mədəni-kütləvi tədbirlərdə iştirakı təmin olunub. Eyni zamanda, işçilərin sosial müdafiəsinin, asudə vaxtının və istirahətinin təmin edilməsi istiqamətində də müvafiq addımlar atılıb. Bundan başqa, şəhid ailələrinə və müharibə iştirakçılarına da maddi dəstək göstərilib.

Yığıncaqda Yeni Azərbaycan Partiyası Həmkarlar İttifaqı Komitəsinin Təftiş Komissiyasının sədri Zəkiyyə Musayevanın təşkilatın gəlir və xərclərinin təftişinin nəticələri barədə hesabatı dinlənilib.



Təqdim olunan hesabatlardan sonra müzakirələr aparılıb. Çıxış edən YAP Gənclər Birliyi sədrinin müavini, YAP Həmkarlar İttifaqı Komitəsinin gənclər və idman məsələləri üzrə daimi komissiyanın sədri Fəsli Nəbiyev və YAP Həmkarlar İttifaqı Komitəsinin mədəni-kütləvi tədbirlər üzrə daimi komissiyanın sədri Xatirə Əliyeva hesabat dövrü ərzində fəaliyyətin qənaətbəxş qiymətləndirilməsini təklif ediblər.

Tədbirdə çıxış edən Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqının sədri Hikmət Osmanov YAP Həmkarlar İttifaqı Komitəsinin fəaliyyətini müsbət dəyərləndirib. O qeyd edib ki, Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı bundan sonra da işçilərin əmək və sosial hüquqlarının təmin olunması ilə əlaqədar YAP Həmkarlar İttifaqı Komitəsi ilə fəal əməkdaşlıq edəcək.

Yığıncaqda YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov çıxış edərək partiyanın Həmkarlar İttifaqı Komitəsinin hesabat dövrü ərzindəki fəaliyyətini qənaətbəxş qiymətləndirib. O qeyd edib ki, Yeni Azərbaycan Partiyası Həmkarlar İttifaqı Komitəsinin fəaliyyətində ünvanlılıq, şəffaflıq və sosial ədalət prinsipləri daim əsas götürülməlidir. YAP Mərkəzi Aparatının rəhbəri təşkilatın bundan sonrakı dövrdə işini daha səmərəli qurması üçün müvafiq tövsiyələrini verib.

Müzakirələrin sonunda hesabat yığıncağının müvafiq qərarı qəbul olunub. Komitənin hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

İclasda, həmçinin YAP Həmkarlar İttifaqı təşkilatından Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqının VII qurultayına iki nəfər nümayəndənin seçilməsi barədə qərar qəbul edilib.

# Parlament seçkilərinin vaxtı...

## Siyasi partiyalar hazırlıq prosesinə start verib

2024-cü il ölkəmizdə bir sıra siyasi hadisələrlə müşayət olunacaq. İlin əvvəlində baş tutan prezident seçkiləri ilə yanaşı, bu il həm də parlament seçkiləri ilidir. Azərbaycan Konstitusiyasının V fəslinin 84-cü maddəsinin ikinci bəndində göstərilir ki, Azərbaycan Respublikası Milli Məclisinin hər çağırışının seçkiləri hər beş ildən bir noyabr ayının birinci bazar günü keçirilir. Başqa sözlə, parlament seçkiləri 2024-cü ilin noyabrın 3-nə təsadüf edir. Amma nəzərə alsaq ki, noyabr ayında ölkəmizdə daha bir qlobal xarakterli tədbir - COP29 baş tutacaq, parlament seçkilərinin vaxtının dəyişdirilməsi məsələsi də aktuallaşa bilər. Zaman-zaman bununla bağlı istər cəmiyyətdə, istərsə də mediada müxtəlif fikirlər səsləndirilir. MSK-nın mayın 2-də keçirilən iclasında çıxış edən MSK sədri Məzahir Pənahov bildirib ki, Mərkəzi Seçki Komissiyası artıq parlament seçkilərinə hazırlığa başlamalıdır.Onun sözlərinə görə, yazda və payızda hazırlıqları daha rahat görmək olur: "Ona görə də artıq hazırlığa başlamalıyıq. Yanvar ayından başlayaraq seçici siyahılarının dəqiqləşdirilməsi də həyata keçirilir. Parlament seçkiləri ilə əlaqədar seçici siyahılarının dəqiqləşdirilməsi prosesi sürətləndirilməlidir". "Parlament seçkilərindən sonra bələdiyyə seçkiləri gəlir ki, o daha da çətindir. Bütün bu hallar nəzərə alınmalıdır", - M.Pənahov əlavə edib.

M.Pənahov bildirib ki, qanunvericiliyə əsasən, bu ilin noyabrında parlament seçkiləri olmalıdır. MSK sədri qeyd edib ki, ancaq seçkilərin müddəti önə də çəkilə bilər: "Parlament seçkilərini nəzərə alaraq, seçki komissiyalarının üzvlərinin maarifləndirilməsi ilə bağlı müəyyən işlərə artıq başlanılmalıdır".

"Azərbaycanda keçiriləcək mötəbər tədbir olan COP29-la parlament seçkilərinin vaxtı eyni zaman kəsiyinə təsadüf etdiyi üçün seçkilərin önə çəkilməsi barədə qərar verilə bilər", - M.Pənahov əlavə edib.

## Azad seçki mühiti hökm sürür...

Bəli, bu il keçiriləcək parlament seçkiləri xüsusi əhəmiyyəti ilə seçilir - bu seçki müstəqillik tariximizdə ilk dəfə olaraq ərazi bütövlüyü və suverenliyi tam təmin olunmuş Azərbaycanda baş tutacaq. Hər bir siyasi təşkilatın yaranmasının əsas məramı kimi önə çıxan şərtlərdən biri sayılan seçkilərdə iştirak etmək, eyni zamanda qalibiyyət əldə etmək üçün konsepsiyaya malik olmaq arzusu bu siyasi marafonu daha da maraqlı edir. Bunun üçün bütün şərtlər mövcuddur - siyasi partiyalar üçün bərabərhüquqlu mübarizə şəraiti yaradılır, namizədlərin seçicilərlə təmasları, öz siyasi platformalarını təqdim etmələri üçün imkanlar formalaşdırılır. Ölkəmizdəki siyasi mühit üçün əlverişlidir - azad rəqabətin inkişafı üçün mükəmməl qanunvericilik mövcuddur, müasir seçki təbliğat vasitələrindən (sosial şəbəkələr, mətbuat, internet resurslar və s.) və seçki prosesinin şəffaflığını sübut edən ən müasir texnologiyalar (veb-kameralı məntəqələr, barmaq boyası mexanizmi. Exit-poll və.s ) fəal şəkildə istifadə olunur. Ortada yalnız bir şərt qalır - siyasi iradə. Bəlkə də bu amil seçkidə iştirak üçün ən əsas şərtdir. Seçkidə iştirak edən partiyalar və onların namizədləri yaradılan bu şəraitdən maksimum yararlanırlar. Builki seçkilərin qabağa çəkilməsi isə siyasi partiyaların seçkilərə hazırlıq prosesinə də əsaslı təsir göstərmir. Çünki siyasi partiyalar təşkilat daxilində seçkiyə hazırlıq prosesinə artıq bir müddətdir ki, start veriblər.



## Sabir Rüstəmxanlı: VHP seçkiyə hazırlıq prosesinə uzun müddətdir ki, start verib



Azərbaycan parlamentində ikinci çoxluğa malik siyasi təşkilat olan Vətəndaş Həmrəyliyi Partiyasının (VHP) sədri, millət vəkili Sabir Rüstəmxanlı seçkinin vaxtının dəyişdirilməsini mümkün hesab edib. Onun fikrincə, vaxtın qabağa çəkilməsi bu və ya digər şəkildə partiyaların ümumi proseslə bağlı fəaliyyətinə təsirsiz ötüşə bilməz, amma əsaslı problemlər də yaratmır: "Vətəndah Həmrəyliyi Partiyası seçkiyə hazırlıq prosesinə uzun müddətdir ki, start verib. Bu ilin əvvəlindən rayon təşkilatları ilə mütəmadi müzakirələr aparılır, namizədlərin müəyyənləşməsi prosesi gedir. Eyni zamanda, seçki prosesinin texniki tərəflərinin həlli ilə məşğuluq. Bir sözlə, partiyamızın seçkidə iştirakı ilə bağlı qərarının ən yüksək səviyyədə təcəssüm tapması üçün səy göstəririk".

Seçkinin vaxtının dəyişdirilməsinə gəldikdə isə partiya sədri bunu təbii adlandırıb: "COP29 qlobal tədbirdir və bu mənada seçkilərin vaxtının dəyişməsi reallığı əks etdirir. Bu tədbirdə demək olar ki, dünyanın əksər dövlətlərinin rəsmi şəxsləri, dövlət başçıları iştirak edəcək. Olduqca önəmli bir tədbirdir. Bu mənada, seçkinin vaxtının dəyişdirilməsi normal qarşılanmalıdır. Seçki ilə bağlı proses ölkədə necə tənzimlənəcəksə, biz də işimizi o cür qurub prosesdə iştirak edəcəyik. Ölkəmizdə seçki mühiti normaldır, seçki qanunvericiliyimiz yüksək səviyyədədir. Seçicilərin prosesinə marağı olduqca yüksəkdir. Biz bu faktı son seçkidə də müşahidə etdik. Bu mənada, suverenliyi və ərazi bütövlüyü təmin edilmiş Azərbaycanda keçiriləcək ilk parlament seçkiləri mühüm tarixi hadisə kimi yadda qalacaq", - deyə S.Rüstəmxanlı əlavə edib.

## Fəzail Ağamalı: Vaxtın dəyişdirilməsi daha real görünür



Ana Vətən Partiyası (AVP) da seçkinin vaxtının dəyişdirilməsi ehtimalına hazırlıqlıdır. Partiyanın sədri, Milli Məclisin deputatı Fəzail Ağamalı bildirib ki, bu il parlament seçkilərinin keçirilməsi gözlənilən idi: "Qanunvericiliyə əsasən seçkilər bu ilin noyabr ayında baş tutmalıdır. Seçkinin vaxtının dəyişdirilməsi ehtimalı ilə bağlı zaman-zaman ictimaiyyət arasında müzakirələr olub, fikirlər səsləndirilib. Paralel olaraq bu ilin noyabrında həm də qlobal əhəmiyyət kəsb edən, dünya səviyyəli bir tədbir - COP 29-da ölkəmizdə keçiriləcək. Vaxt məsələsi üst-üstə düşməsi səbəbilə seçkinin vaxtının dəyişdirilməsi daha real görünür. MSK sədrinin açıqlaması bu yöndə olan tərəddüd və gümanlara son qoydu. Fikrimcə, verilən məlumat daha çox konkretlik mahiyyəti kəsb etdi və bu ilin yayın sonunda seçki keçirilməsi mümkündür".

F.Ağamalı qeyd edib ki, seçki prosesinə hazırlıqla bağlı artıq uzun müddətdir ki, partiya daxilində müzakirələr aparılır, addımlar atılır. Partiya bütün gücü ilə seçkiyə hazırlaşır. "Yenə də öz mövqeyimizi ortaya qoymağa çalışacaq, seçkidə namizədlərimizlə iştirak edəcəyik. Ölkəmizdə mükəmməl seçki qanunvericiliyi var, demokratik seçkilərin keçirilməsi üçün azad şərait, siyasi iradə ortadadır. Zəngin təcrübəmiz hər kəsə bəllidir. Seçici marağı yüksək səviyyədədir. Bu gün ölkəmizdə mühüm proseslər gedir. Ərazi bütövlüyümüz təmin edilib, suverenliyimiz bərpa olunub. Bu möhtəşəm işlər qısa zamanda baş tutub. Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan bütün bu işlər yüksək siyasi fəallığa yol açır. Seçicilərin bu seçkidə də fəal iştirak edəcəyinə inanıram".

## Arzuxan Əlizadə: Vaxtın qabağa çəkilməsi bizim üçün problem yaratmır



Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) sədri Arzuxan Əlizadə isə bildirib ki, Azərbaycan Konstitusiyasına görə növbəti parlament seçkiləri noyabr ayının 3-nə təsadüf edir. O da, COP 29 tədbiri ilə eyni vaxta düşdüyü üçün parlament seçkilərinin vaxtının bir az qabağa alınması təbii sayır: "Eyni zamanda dekabrda bələdiyyə seçkilərinin keçiriləcəyini nəzərə alaraq biz də ehtimal edirdik ki, seçkilərin vaxtı ilə bağlı dəyişikliklər mümkündür. MSK sədrinin bununla bağlı açıqlaması müəyyən fikirlər yaratdı. Bildirildi ki, seçkilər qabağa çəkilə bilər. Bunun üçün isə təbii ki, parlament növbəti dəfə özünü buraxmalı, yenidən parlament seçkiləri təyin olunmalıdır".

A.Əlizadə bildirib ki, AMİP siyasi partiya olaraq prosesə çoxdan hazırlaşır. Son prezident seçkilərinin ardından partiyanın müvafiq strukturlarının toplantıları keçirilib, həm parlament, həm də bələdiyyə seçkilərində iştirakla bağlı qərar verilib. "Parlament seçkilərinə hazırlıqla bağlı aktiv müzakirələr aparılıb, addımlar müəyyənləşdirilib. Hətta biz referendumla bağlı ehtimalları da nəzərə alırdıq və bu yöndə də öz təkliflərimizi hazırlamışdıq. Vaxtın qabağa çəkilməsi bizim partiyamız üçün heç bir problem yaratmır. Çünki hazırlıq prosesinə artıq uzun müddətdir ki, start vermişik. Ölkəmizdəki seçki mühiti də normaldır. Əlbəttə ki, bu mühit daha da yaxşılaşdırıla bilər. Məhz bu mənada referendumla bağlı fikirlərimiz formalaşmışdı. Amma fərqindəyik ki, 2020-ci ildən ölkəmizin siyasi həyatında yeni konfiqurasiya yaranıb. Siyasi partiyalar yenidən qeydiyyatdan keçməsini, siyasi partiyalara əvvəlki dönəmə nisbətdə daha münbit şəraitin yaradılmasını, isti münasibətlərin və təmasların formalaşdırılmasını, Prezident Adminstrasiyasında Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin yaradılmasını yüksək dəyərləndiririk. Bu, bizdə o fikri yaradır ki, qarşıdan gələn seçkilərdə siyasi partiyalara əlavə olaraq diqqət yetiriləcək və namizədlərin seçki prosesində iştirakının daha da aktivləşməsi üçün addımlar atılacaq. Fikrimcə, siyasi partiyaların hər birinin parlamentdə geniş tərkibdə təmsil olunması bütövlükdə həm dövlətçiliyimizə, həm də parlamentarizm ənənələrimizə yalnız töhfə verə bilər", - deyə AMİP sədri əlavə edib.

*Pərviz SADAYOĞLU*

# ÇİNGİZ AYTMATOV - TÜRK RUHUNUN QƏLƏBƏSİ

*"İndi artıq dünya qan tökməklə problemləri həll etmək yolunu tuta bilməz. Müharibə kultunun yerinə mütləq dünya mədəniyyəti gəlməlidir. Dünya paytaxtlarının mərkəzində mütləq at belində sərkərdələr görürük. Bəs sülh istəyən böyük şəxsiyyətlər hanı"?*

**ÇİNGİZ AYTMATOV**

Çingiz Aytmatov XX əsr nəsrini yaradan yazıçılardandır, bu nəsrin daxili dinamikasını - ritmini, ovqatını dəyişən, ədəbiyyata bilavasitə türk nəsri poetikasını gətirən, onu yetişdirən, yazan və hətta yazdıran tarixi simadır. Kiçik bir ölkənin nəsrini bəşər sivilizasiyasına qovuşdurmuş Çingiz Aytmatov yaradıcılığı bu gün çağdaş təfəkkür işığında müəyyən parametrləri ilə xüsusi önəm kəsb edir. Zamanın XXI əsr insanının qarşısına çıxardığı bəşəri suallara cavab aramaqda bu nəsrin potensialı yetərincə güclüdür. Çingiz Aytmatovun yetişdiyi ədəbi dövr 60-cı illərin - yeni nəsr düşüncəsinin qurulduğu (məhz qurulduğu!) illərə bağlanır ki, bu mərhələ bildiyimiz kimi bütün postsovet məkanı ölkələri üçün yeniliklərə açıqlığı ilə səciyyələnir. Ədəbiyyatın bu dövründə irəli gələn yeni dalğası öz bədiilik meyarlarına mühafizəkarlığı ilə diqqət çəkir, ilk növbədə sənətin pafosdan real həqiqətə, sırf bədii-estetik meyarlara dönüşü, ümumbəşəri dəyərlərə doğru meyllənməsi ilə şərtlənir. Təbii ki, 60-cı illər ədəbiyyatında başlanan bu təbəddülatlar həm də cəmiyyət miqyasında gedən ideoloji ilıqlanmanın nəticəsi idi.

Qəribə bir parodoksallıq da məhz, bu zaman(dan) başlayır. Rejimin sərtliyi nisbətən, yumşalmağa doğru getdikcə, ədəbiyyatın içindəki ağrı simvolikası, ruhun təklik, tənhalıq çaları daha çox üzə çıxır.

Bu, bəlkə də əsrin 20-30-cu illərində yarımçıq qalmış, yarıda qırılmış ədəbiyyat, azadlıq ideallarının içinə hopmuş kədəri idi, yaxud 1937-ci ildə qırğına verilmiş bütöv bir ədəbi nəslin səssiz fəryadı idi - indi, zamanı gəldikcə boy verməyə başlayırdı. Hansı ki, həmin prosesin fəci nəticəsi Çingiz Aytmatovun da taleyindən izsiz ötüşməmiş, yazıçının dövlət qulluğunda işləyən atası Terekul Aytmatov 1937-ci ildə həbs edilərək bir il sonra güllələnmişdir. İstər sağlığında, istərsə də ölümündən sonra yazıçını qınayırdılar: niyə atasını güllələyən bir rejimin dissident yazıçısı olmayıb deyə. Bu Aytmatov istedadına yeni bir çalar qatmasaydı da olsun ki, rejim çökdükdən sonra müəyyən imic qazandıra bilərdi.

Amma bütün hallarda yazıçılığın mayasında istedad durur və bu istedad deyilən nəsnə insanda yoxdursa, diyarbədiyar laməkan olsa belə ədəbiyyatın kandarına ayaq basmağa müvəffəq olmayacaq.

Məgər A.Soljenitsını dünyaya tanıdan SSRİ kimi dövlətə müxalifçiliyi ilə bahəm həm də istedadı deyildimi?! Elə Əlahəzrət İstedadın sayəsində Çingiz Aytmatov başqa yolu seçdi, sovet sisteminin daxilində yazıb-yaratdı, hüdudsuz idrakı, kosmoqonik düşüncə qatı ilə sovet nəsri qanunlarını yarıb onu dünya nəsri səviyyəsində gerçəkləşdirdi və atasını qırğına verən bir cəmiyyəti öz qarşısında təzim etdirməyə nail oldu. Sosialist realizmin insana müxalif konsepsiyası daxilində Aytmatov humanizmi kult səviyyəyə qaldırdı, psixologizmi dərinləşdirdi. Bu məncə, dissidentlikdən də çətin hasilə gələn bir hünərdir. R.Rövşən demiş: "Dünyayla savaşmaq asanmış demə, çətini dünyayla barışmaq imiş..." Bir də bəlli bir qanunauyğunluğa diqqət çəkməyin zamanıdır: istənilən sənətkarı, ədəbi şəxsiyyəti, həmçinin ədəbiyyat tarixininin özünü belə real tarixi gerçəklikdən ayırdıqda zaman da, sənətkar da yeni repressiyanın qurbanına çevrilirlər. Halbuki Tanrının Ç.Aytmatova ayırdığı missiya daha ağır, daha müqəddəs idi. O sovet rejiminin daxilində əsl ədəbiyyat yaratmağın nümunəsi olmalıydı, istedadın heç bir qadağa, sərhəd tanımadığına insanları, olsun ki, imperiyanın süqutundan sonra doğulacaq yeni ədəbi nəsli inandırmalı idi. "Əsrə bərabər gün" romanındakı bir epizodu xatırlayırsınızmı? Nayman Ana onu tanımayan oğlunun yaddaşını hərəkətə gətirmək üçün başını dizləri üstə alıb layla oxuyur. Silinən yaddaşı, itən hafizəni qaytarmağın bundan titrək vasitəsi ola bilməz. Ç.Aytmatovun əsərləri də sovet sisteminin ideoloji siyasətində boğulan insanlar üçün bir layla səciyyəsi daşıyırdı. "Səni nə hala gətirdilər, xatırla kim olduğunu"- bu, Nayman Ananın dili ilə özündən, özgürlüyündən zorla qoparılan bütün türklərə ünvanlanmış nida, qan yaddaşını oyatmağa yönəlik türkü idi.



Elnarə AKİMOVA
YAP İdarə Heyətinin üzvü, filologiya elmləri doktoru, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda şöbə müdiri

Bu gün bütün keçmiş postsovet məkanı ölkələrində XX əsrin ilk onilliklərində rəngarəng tendensiyaların formalaşmasına rəvac verən amil kimi I Dünya müharibəsi, onun aşıladığı inqilabi xarakter, bəşər miqyasında başlanan dekadans, dünyanın gələcəyi ilə bağlı pessimist əhvalruhiyyə, apokalipsis hissi, insanların psixolojisində, düşüncə və xarakterində başlanan "çevrilmə" əsas səbəblər kimi mənalandırılır və bu, həqiqətən də XX əsr insanını, sənətkarını keçib gəldiyi zamanın gerçəkləri və tələbləri içrə səciyyələndirməyə imkan verir. Əsrin planetar məzmunu, elmi informasiya məkanında iştirakı ilə şərtləndirilən başlanğıcı elə onunla səciyyəvidir ki, qəti olaraq tarixi gedişatı çağdaş dünya proseslərinə cəlb edir; ən azı təcrübəsinə daxil edib onu dərk etməyə çalışır. 20-ci illərdən başlayaraq sovet hakimiyyətinin diktəsi, asılılığında olan ölkələrin ədəbiyyatındakı prosesləri özgə səmtlərə yönəltdi. Bu epoxanın bir neçə onilliyini qapsayan sovet ideologiyasının insana vəd etdiyi işıqlı həyat, xoşbəxt gələcək ilə bağlı fikirlərin sadəcə illüziyadan başqa bir şey olmadığı isə təxminən 60-cı illərədək davam etdi. Xalq yazıçısı Anar "Nəsrin fəzası" adlı məqaləsində doğru yazır ki, "Yeni Azərbaycan nəsri"nin əsas nümayəndələrinin hər birinin özüməxsus fərdi simasına baxmayaraq, nəsrimizin bu dövrdəki inkişafını 60-80-ci illər yazıçılarının sırf şəxsi xidməti kimi qiymətləndirmək düzgün olmazdı. Yeni Azərbaycan nəsrini hər şeydən əvvəl, zamanın özü yetirdi; bu nəslin yazıçıları isə öz dövrünün övladları idi".

Bəli, məhz bu zamandan başlayaraq sənətə münasibətdə pessimizmin meydana çıxma səbəbləri daha çox maarifçilik ideyalarının özünü doğrultmadığı və zəkanın süqutu ilə əlaqədar idi. İki dünya müharibəsi, ölüm sobaları, konslagerlər, total inqilablar və əksinqilablar - hər biri cahanda kamalın təntənəsi arzusunu fiaskoya uğratdı. Fəlsəfənin bu çağadək diktə etdiyi əqli inkişaf intibah doğurmadı. Əksinə, müharibələrə yol açdı.

Ədəbiyyatda əqlin gücünə olan inam sarsıldı. Həmin xaotik durumun rəvac verdiyi neqativlər sonucda ən böyük zərbəni insana vurdu, onunla zamanın, mənəvi-əxlaqi dəyərlərin sabitliyi arasındakı əlaqənin pozulmasına gətirib çıxardı: qlobal tənhalıq insanın özgələşməsini, özündən ayrılmasını, yadlaşmasını şərtləndirmiş oldu.

Bu mənada, sovet rejiminin İnsanı yalnız müharibələrin əzdiyi insan deyildi, o, həm də tək qalmış, təcrid olunmuş, cəmiyyət tərəfindən təbii bir proseslə uzaqlaşmış, yadlaşmış çarəsiz insan idi. Həmin dönəmin mahiyyəti, onun yaddaş strukturunda yer almış görüntüləri ilə çağın insanının düşüncəsi arasında dialoq bədii təfəkkürə yansımaya bilmədi. Bədii düşüncə yeni təfəkkür modelləri axtarışında fərqli fəaliyyət sferasına daxil oldu. Qərbdə bu sosial anomaliya ilə ekzistensialist fəlsəfə məşğul olurkən, keçmiş postsovet məkanı ölkələrinin dünya ilə, insanla yeni münasibətlər sistemi axtarışında fərqli fəlsəfi-estetik fikrində sərt realistik boyalar üstünlük qazanmağa başladı. Bu mənada, 60-cı illərdən başlayaraq dünya ədəbiyyatının yükləndiyi İnsan ağrısının ədəbiyyatın mərkəzinə çəkilməsi yalnız rejimin yumşalması səbəbindən hasilə gəlməmişdi, həm də puç olmuş, bada getmiş xəyalların yazıçı psixolojisində yaratdığı məntiqi nəticədən qaynaqlanmışdı.

Əslində, ədəbiyyatda yenilik hesab olunan hər bir nəsrə yeni İnsan konsepsiyasının yaranması, ənənəvi sənətin tənqidi dərki ilə bağlı məsələdir. İstənilən ədəbi təmayülün məşğul olduğu və həll etməyə çalışdığı ən mühüm problemlərdən biri məhz, insana baxış məsələsinin önə çəkilməsidir. Deməli, burada iki amilin rolu həlledicidi: zamanı irəli aparmağa çalışan ideyalar və onun doğuluşunu şərtləndirən yeni sənət, insanın zamanda yeri ilə bağlı irəli gələn yeni estetik prinsiplər. Bəs bu mübadilədə Ç.Aytmatovun iştirakı nə qədər funksional görünür? Bunu təbii ki, ustad yazıçının əsərlərini dünya maraqları kontekstində tədqiqata cəlb etməklə öyrənmək mümkündür.



Ç.Aytmatov nəsrinin güc mənbəyi nədədir? Sualın cavabı yazıçının yaradıcılığı ilə tanış olan hər kəsə bəllidir. Ç.Aytmatov yaradıcılığa başlayan zamandan sənətin ali prinsiplərinin, bəşəri dəyərlərin nədə ehtiva olunduğunu dərindən anladı və bütün şüurlu ömrünü həmin ali prinsiplərin realizəsinə yönəltdi. "İnsan - təbiəti etibarilə kosmosdur" - deyən yazıçı ədəbiyyatın əbədi predmetinə kosmos olaraq yanaşdı, onu təbiətin və Tanrının zərrəsi kimi aldı, bəşərin əşrəfi kimi dəyərləndirdi. İndi bəlkə də İnsanı bədii mətnə gətirmək, onun dərdlərindən, qayğılarından, sevgi və həyəcanlarından yazmaq o qədər də çətin deyil. Amma Aytmatov zamanında bu o qədər də asan məsələ deyildi. Sənətkarsa bütün hallarda öz zəmanəsinin övladıdır və onu öz mühiti və dövrü üzrə dəyərləndirmək lazımdır.

Hələ XX əsrin əvvəllərində yazdığı "Türklər kimdir və kimlərdən ibarətdir" əsərində Əli bəy Hüseynzadə qırğız türklərinin istedadı haqqında Radlovun dediyi fikirlərə şərik olaraq yazırdı:

"Yunan şairi-əzəmi Homer zamanındakı sünuhati-milliyyənin dövrü-dastanisini bu gün ancaq qırğız qövmündə müşahidə etmək mümkündür". Ç.Aytmatovun əsərləri həmin folklorla, miflə, tarixi keçmişlə körpü rolunu oynadı. Mifdən yazıya, eposdan kitaba və nəhayət, dünəndən bu günə uzanan elə bir körpü ki, onunla çağdaş dövrün təməsını yaratmaq sovet dövründə zamanın qırılmış bağlarını birləşdirmək, onun bütövlüyünü bərpa etmək üçün lazım idi. Bu mənada ədəbiyyata yeni gələn yazıçının üzünü yaddaşa çevirən tarixə - özündə xalqın milli kodunu və möhürünü əbədiləşdirən söz sənətinə tutması ilk növbədə, həmin boşluğu doldurmaq ehtiyacından irəli gəlirdi. Təbii ki, bu həm də qırğız xalqının min illər boyu formalaşmış dəyərlərinin nəsrdə təcəssümü idi, zamanı gəlmiş də "Manas oğlunun" qələmində əksini tapmışdır.

Ç.Aytmatov insan dəyərinə xidmət edən sənət yaradır və yalnız bu sənəti əqlimənəvi intibahın, milli-bəşəri dəyər və beynəlmiləl sərvət axtarışının mərkəzinə gətirirdi. 1960-cı illərdən başlayaraq bu nəsr elə mövzuları qabardır ki, əvvəlki dövrlərlə müqayisədə təsəvvür hüdudlarını aşır. Konkret tarixi materialın kontekstində ümumbəşəri problemləri qoyub həll etmətə çalışan bu əsərlərdə İnsan onun mövcudluq problemlərinin dəyişməz mənəvi və sosial dəyərləri sınağında dərk edilirdi. Hansı ki, bəşəriyyətin qarşısında həmişə bütün kəskinliyi və ciddiliyi ilə durmaqdadır.

Əbədi insan-zaman, Tanrı-mən, həyat-ölüm məsələlərini ehtiva edən bu əsərlər ilk növbədə, İnsan konsepsiyasının bütövlüyü ilə, dövrün mürəkkəb və təzadlı proseslərində, harmoniya və mənəvi kamillik axtarışlarında iştirak edən milli sərvət kimi dəyərlidir.

Yazıçının oğlu İlgiz Aytmatov da atasının ədəbi irsinə "dəyərlər məxəzi" kimi yanaşır, ondan çağın problemlərini dərk etməkdə kara gələn ünvan olaraq bəhs edir: "...cəmiyyətin özündə daima və sistematik olaraq insanların düşüncələrinə humanizm, sevgi, qarşılıqlı hörmət, beynəlmiləlçilik, dostluq münasibətləri, əmin-amanlıq və zəhmətsevər həyat ideyalarının hakim kəsilməsi üçün təbliğatı işə aparılmalıdır. Təəssüf ki, insanın real həyatında, əsasən, adamların bir-birinə qarşı durması amilləri mövcudur. Bu gün Çingiz Aytmatovun ədəbi əsərləri müasir cəmiyyətin inkişafının ideoloji-əxlaqi əsasının təşəkkül tapmasında fəlsəfi və həyati mənbələr ola bilər."

Həqiqətən də, öz sosial-siyasi görüşlərinin miqyası və məzmunu, İnsana, onun mövqeyinə və roluna verdiyi dəyəri, əqli-əxlaqi təkamül idealı ilə Ç.Aytmatovun əsərləri bəşəriyyət üçün güclü impulslar verir. Çingiz Aytmatovun son əsərlərində belə qloballaşan dünyamızın təbəddülatlarına, onun insan mənəviyyatının üstələməsinə dair fikirlər var. Müəllif yeni dünya həqiqətlərinə, həyat tərzinə qarşı milli yaddaşın öz keyfiyyətlərini qoyur və bu məramla yadlaşma (yaddaşsızlaşma!) prosesinə müqavimət hissi aşılayırdı. Çingiz Aytmatov sanki zamanı yeni sınaq qarşısına çıxarır: özgə mədəniyyətlər daxilində hər bir milli insanın mövqeyi necə görünür, ənənə və mühafizəkarlıq meyarlarının cəmiyyətdə dayanıqlılığına necə çaba göstərir. Faktura və problematika müasirlikdən, keçib gəldiyimiz çağdaş və hələ də diri qalan problemlərimizin aktuallığından nəşət edirdi. "Əsrə bərabər gün", "Kassandra damğası", "Edam kötüyü" - bu əsərlərlə yazıçı bəşəriyyətin xilası yolunda ahəngə, birliyə addımı ifadə edən ünvanları nişan verirdi. Bu əsərlərdə eyni anlam yaradıcı mexanizmlər fəaliyyət göstərir, yeni dünya modelinin məna axarlarının trayektoriyası kosmik, mifik və ilahi elementlərin məkanları içrə gəzişirdi. Ona görə də məhz bu yaradıcılıqda kodlaşan ədəbi və mənəvi dəyərlərin vüsəti böyük idi: din və dil birgəliyi, ruhani və bəşəri problemlər, dünyəvilik və ilahilik, Tanrı eşqi və insan sevgisi Aytmatov yaradıcılığında ideal bütövlük və ahəng yaradırdı. Məkan və zaman paralelləri, süjetdə çoxqatlı ekspozisiya, təbiətlə insan ahənginin birgəliyi, həyat və ölüm, mif və reallıq arasında sərhədsiz keçidlər - hər biri təsadüfi xarakter daşımır, əsərlərdə yalnız bədii deyil, eyni zamanda fəlsəfi məkanı təşkil edirdilər. Yazıçı müasir problemlərin inikasına varmaq üçün də yolunu tarixdən, mifologiyadan, folklordan salırdı, təsvirə çəkəcəyi predmetin etnik-tarixi tipini - genotipini müəyyənləşdirirdi. Əsrarəngiz təbiət təsvirləri, heyvan obrazları, müəlif rəmzlər, şərti-metaforik obrazlar onun təhkiyə üsulunun mifoloji kökləri idilər. "Ağ gəmi"də Ana maral, "Dəniz kənarı ilə qaçan alabaş"dakı Qadın balıq, "Edam kötüyü" romanındakı Taşçaynar adlı quş obrazları, Gülsarı, Qaranar, Ağbars kimi real heyvan obrazları yazıçının milli folklorla bağı (bağlılığı) zəminindən qaynaqlanmağa bahəm onun fərdi yaradıcılıq üslubunun əsas özəlliyi kimi çıxış edirdi. Həmin mifoloji obrazların inikası yazıçıya insan taleyini qabartmaq, təcəssüm etdirmək üçün lazım idi. Bu mənada onun bir yazıçı kimi özəlliyi heç də yaratdığı türk obrazlarının mükəmməlliyi, yaxud insan yaddaşının simvolikası ilə məhdudlaşmır. Onun mürəkkəb, çoxplanlı nəsrinin ən əsas özəlliyi hər zaman məhz, türk təfəkkürü məcrasında düşünməsi və düşüncələrini türkün zəngin tarixi mədəniyyəti kontekstində ədəbiyyat müstəvisinə gətirməsidir. Bu özəlliyi zamanında duyan və dəyərləndirən ədəbiyyatşünas-alim Nizami Cəfərovun dediyi kimi, "Ç.Aytmatov ona görə nəhəng sənətkardır ki, min illərin zəngin türk mədəniyyətini özündə məhz tarixi inkişaf məntiqi ilə ehtiva edir, - onun təfəkküründə buddizmin də, iuadaizmin də, xristianlığın da, İslamın da fəlsəfi-estetik anlayışları ardıcıl şəkildə türk mədəniyyətinin idrak prinsiplərinə tabe olur, həmin prinsiplər baxımından işlənir, - bu mənada, Ç.Aytmatov mədəni-tarixi mövcudluğumuzun arxeoloji ibtidasından gəlir..."

Hələ ilk əsəri olan "Cəmilə"nin nəsrin fəzasında doğuluşu yazıçının türk mentallığına bağlılığını uğurla sərgiləyir, türk etnosunun etnoqrafiq cizgilərinin portretini yaradırdı.

Baxmayaraq ki, əsər könülləri "ən gözəl sevgi hekayəti" (L.Araqon) kimi fəth etmişdi...

Mənə elə gəlir ki, Ç.Aytmatovun ən saf, ən zərif əsəri məhz "Cəmilə"dir. Yalnız ona görə yox ki, povest yazıçının ilk qələm təcrübəsi sırasına daxildir. Sadəcə bu əsərdə Ç.Aytmatov qələmi dünyanın böyük işıqlərinə bulaşmayaraq, ona eşqin nəzərləri ilə boylanmağı təqib qılırdı. Cəmilənin "kiçinəbala"sı olan Seyidin rənglər dünyasında sevgi boyaları oxucuya "gördüyündən artıq görə bilmək" cəsarəti və həssaslığı aşılayırdı. Ç.Aytmatov sevginin yaddaşını oyadır, onu İnsan mənəviyyatının başlıca məziyyəti kimi qabardırdı. Sonralar müsahibələrinin birində bu konsepsiyanı daha inamla təlqin edərək - "həyatın əsasını məhəbbət təşkil edir" deyirdi.

Bu, ağrılardan keçib gələn XX əsr yazıçısının fəci reallıqlar qarşısında çıxış yolu idi. Ç.Aytmatovun istisnasız bütün əsərlərində bu konsepsiyanın - humanizmin ideya istiqamətləri aydın görünürdü. "Cəmilə" əsəri ilə yazıçı sevgisi gözündə donan bir cəmiyyətin buzunu əritməyə qalxışırdı və bunu elə zamanın özünün dəyərlərinə müxalif olaraq, tabulara qarşı çıxaraq edirdi. Bu "mərkəzdənqaçma tendensiyası" icazəli yenilik idimi? Düşünmürəm. Çünki əsər icazəsiz-filansız, öz bədii məziyyətləri ilə bütün cəmiyyət qanunlarını nəsrin fəzasından görməzdən gəlir, bu qanunların hər şeyin fövqünə qaldırdığı sevgi motivindən neçə boy aşağıda, çökəndə olduğunu ayna tuturdu.

"Bu dünyanın köhnəlmişdi rəngləri, / Sevdim səni məhəbbətlə boyadım" (N.Kəsəmənli). Ç.Aytmatov da beləcə, bozluq içində yaşayan sovet insanına Sevgi adlı ali hissdən bəhs edirdi. Əmək adamlarını yalnız iş başında təsvirə çəkməklə deyil, içindəki dəyərli halları üzə çıxarmaqla mənalı edirdi. Cəmilə, Daniyar, Düyşən,Tanabay, Edigey, Boston - ilk növbədə, mənəvi yüksəlişləri ilə maraqlı idilər. Çünki həmin vaxta qədər nəsrdə sözün böyük mənasında İnsan təsvirə çəkilmirdi. Kolxozçu, fəhlə, inqilabçı, çoban və s. - bu peşələri təmsil edən obrazların arxasında düşünən beyini, döyünən ürəyi bədii mətnə gətirmək nədənsə yazıçıları o qədər də məşğul etmirdi. Ç.Aytmatov ilk olaraq İnsanı bədiiyyatın mərkəzinə gətirdi və elə həmin zümrənin İnsanının hiss və həyəcanlarından, qayğı və problemlərindən, sabahı naminə keçmişindən və indisindən yazdı.

Çingiz Aytmatov ömrünün son çağlarınadək öz prinsipinə sadiq qaldı. Dünyanın mal, mülk, torpaq iddiaları ilə bağlı ağlasığmaz fəlakətlərinə, insanlığa edilən amansız cinayətlərə münasibətdə öz mövqeyindən sapmadı: "İndi artıq dünya qan tökməklə problemləri həll etmək yolunu tuta bilməz. Müharibə kultunun yerinə mütləq dünya mədəniyyəti gəlməlidir. Dünya paytaxtlarının mərkəzində mütləq at belində sərkərdələr görürük. Bəs sülh istəyən böyük şəxsiyyətlər hanı"? Bu fikirlər Çingiz Aytmatov ziyalılığının yerinə yetirdiyi missiya baxımından özəlliyinin sübutu kimi xüsusi bir əməl cizgisi kəsb edir. Bu missiya yenə davam edir. Çünki bəşəriyyət şərdən xilas olmayıb. O,"Köçəri quşun iniltisi" hekayəsində "Ey insanlar, Allah sizi ağlasığmaz bəlalardan qorusun", - deyirdi". Biz "köçəri quşun iniltisi"ni yenə eşidirik. Amma artıq ümidsiz deyilik. Çünki həm də sülh istəyən böyük şəxsiyyətlər qoruyur dünya nizamını. Ötən həftə bu şəxsiyyətlərdən ikisi - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Bakıda böyük yazıçının abidəsinin açılışını etdi. Bu, yalnız sözə ehtiramın təntənəsi deyildi, həm də verilən əməyin bəhrəsi -

**TÜRK RUHUNUN QƏLƏBƏSİ idi!**

# "İctimai proseslər media müstəvisində"

## Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə bu mövzuda forum keçirilib

Mayın 3-də Bakıda Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə "İctimai proseslər media müstəvisində" mövzusunda forum keçirilib. Tədbirdə Ulu Öndər Heydər Əliyevə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov tədbirdə açılış nitqi ilə çıxış edib. Əhməd İsmayılov bildirib ki, Prezident İlham Əliyev bir qayda olaraq cəmiyyətdə baş verən hadisələr haqqında əsas informasiya qaynaqlarından biri kimi medianın rolunu daim yüksək qiymətləndirib və onun ictimai nəzarət funksiyasına böyük önəm verdiyini həmişə vurğulayıb. Medianın ictimai maraqlardan irəli gələn obyektiv və qərəzsiz məlumat hazırlamaq funksiyasını layiqincə yerinə yetirməsi üçün ölkəmizdə həm ictimai-siyasi, həm də hüquqi zəmində hər cür şərait yaradılıb.

O vurğulayıb ki, bu forum vasitəsilə Azərbaycan mediasının müasir tələblərindən və inkişaf tempindən irəli gələn tendensiyalar, habelə cəmiyyətin mediadan gözləntiləri baxımından yeni bir təcrübənin əsası qoyulur. "İctimai proseslər media müstəvisində" mövzusuna həsr edilən forum həm dövlət-media dialoqunun səmərəli təşkilinə, həm də medianın cəmiyyəti ictimai əhəmiyyətli informasiya ilə təmin etmə funksiyasının daha effektiv səviyyəyə yüksəldilməsinə hesablanıb. "Praktik əhəmiyyət daşıyan dövlət-media dialoqunun yaradılması, eyni zamanda, cəmiyyətin sosial sifarişi kimi meydana çıxıb. İctimai rəydə dezinformasiya vakuumunun yaranmaması, ölkəmizin informasiya mühitinin çirkləndirilməsinin qarşısının alınması baxımından dövlət-media dialoqunun peşəkar prinsiplər əsasında və davamlı olaraq təmin edilməsi müstəsna xarakter daşıyır", - deyə Ə.İsmayılov qeyd edib.



İcraçı direktor deyib ki, media islahatlarının hüquqi bünövrəsini möhkəmləndirən "Media haqqında" Qanunun qəbulu, eyni zamanda, bu istiqamətdə atılmış sistemli addımlar ölkəmizin media mühitinin sağlamlaşdırılması, media subyektlərinin fəaliyyətinin dəstəklənməsi, jurnalist peşəkarlığının artırılması baxımından yeni inkişaf mərhələsinin əsasını qoyub. Onun sözlərinə görə, Azərbaycan mediası öz işini müasir trendlərə cavab vermək səviyyəsində qurmaqda, jurnalistikaya olan ictimai etimadın daha da möhkəmləndirilməsində maraqlıdır.

Forumda çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bildirib ki, medianın cəmiyyətin və dövlətin inkişafında rolu danılmazdır: "Azərbaycanda medianın müasir tələblərə uyğun inkişafı sahəsində ölkə başçısı bütün zəruri addımları atıb. "Media haqqında" qanun media-cəmiyyət, media-dövlət əlaqələrinə dair müddəalar da yer alıb. Bu qanun həm də jurnalistlərin hüquqlarının qorunmasında mühüm rol oynayır. Bu gün MEDİA müxtəlif istiqamətində Azərbaycanda media vasitələrinin obyektiv və səmərəli inkişafına dəstək olur".

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova isə çıxışında deyib ki, media məhsulları sosial şüura təsir göstərir. O bildirib ki, ictimai rəyin formalaşmasında informasiyanın çatdırılması önəmlidir: "Ailə, qadın və uşaq məsələləri çox prinsipial istiqamətdir. Bu sahə ilə bağlı məlumatlar xüsusi yanaşma tələb edir. Bəzən yüngül hadisələr ağır formada təqdim edilir. Bu da cəmiyyətə yaxşı təsir göstərmir". Komitə sədrinin sözlərinə görə, qadın hüquqları məsələsində xəbərin tez çatdırılması ilə işini bitdiyini zənn edən insanlar o qadınların həyatlarını təhlükəyə atırlar: "Ona görə də həssas xəbərlərlə əlaqədar mütləq müvafiq qurumlarla əlaqələr yaradılmalıdır".

Qeyd edək ki, tədbir çərçivəsində "Narkomanlığa qarşı mübarizədə mediadan düzgün istifadə", "Sosial məsələlərin, həmçinin məişət zorakılığı və erkən nikah kimi həssas mövzuların mediada düzgün işıqlandırılması", "Mediada kiberbullinqə qarşı effektiv mübarizə və kiber maarifləndirmə" və "Yaşıl dünya naminə həmrəylik ili"ndə media gündəmi" mövzularında panel sessiyalar keçirilib.

**N.BAYRAMLI**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Bitməyən bəla...

## İnsan Alverinə Qarşı Mübarizə Günüdür

*Yeganə BAYRAMOVA*

Müasir dövrün ən aktual problemlərindən biri insan alveridir. İnsan alveri bir çox dünya ölkələrində baş verən qlobal hadisədir. Bu hadisənin qurbanları kişi, qadın və uşaqlar ola bilər. İstismara ən çox məruz qalanlar isə gənc qadın və cavan qızlar olur ki, onlar da əsasən seksual istismara məruz qalırlar. Cinsi istismar, məcburi əmək, borca görə köləlik, uşaq əməyinin istismarı, ev köləliyi, dilənçilik, insanların silahlı qruplaşmalarda məcburi işlədilməsi, orqan transplantasiyası məqsədi ilə insan alveri - bütün bunlar eyni dəhşətli cinayətin fərqli növləridir.

**32 milyard dollar gəlir...**

Birləşmiş Millətlər Təşkilatının (BMT) məlumatına əsasən, dünyada insan alverindən gələn gəlir təxminən 32 milyard ABŞ dolları təşkil edir. İnsan alverinin nisbətən aşağı riskləri və böyük gəlirlər, cinayətkarları digər, daha riskli cinayətkar əməllərə deyil, məhz insan alverinə meylləndirir.

BMT-nin hesabatına görə, hər beş insan alveri qurbanından biri yetkinlik yaşına çatmayan gənclərdir. İnsan alveri qurbanlarının sayının artmasına əsaslanaraq, bir çox ölkədə insan alveri ilə məşğul olan insanların cinayət məsuliyyətinə cəlb edilməsi üçün normativ hüquqi aktlar qəbul edilib.

**Hər üç qurbandan biri uşaqdır...**

Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (UNICEF) hesablamasına görə, hər il 1,2 milyon uşaq insan alverinin qurbanı olur. Aşkar olunan qurbanlar arasında uşaqların faiz nisbəti artmaqdadır: hər üç qurbandan biri uşaqdır. İnsan alverinin qurbanı olan hər üç uşaqdan ikisi qızlardır. Beynəlxalq Əmək Təşkilatının (BƏT) hesablamasına görə, məcburi əməyə məruz qalanların 40 - 50 faizi 18 yaşınadək olanlardır.

Qeyd edək ki, Prezidentin 2004-cü il 6 may tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planı" hazırlanıb. Daxili İşlər Nazirliyi, beynəlxalq təşkilatların dəstəyi ilə 2009-cu ildən başlayaraq hər il may ayının birinci həftəsi "İnsan alverinə qarşı mübarizə həftəsi", mayın 6-sı "İnsan Alverinə Qarşı Mübarizə Günü" kimi qeyd edilir.

**İnsan alveri necə baş verir?**

İnsan alverində əsas məqamlardan biri qurbanın istismara cəlb edilməsidir. Qurbanları cəlb edən şəxslər onlara çoxlu yalan vədlər edirlər. Bəzi hallarda qurban nə işlə məşğul olacağını əvvəlcədən bilir, amma hansı şərtlərlə qarşılaşacağını təsəvvür etmir. İnsanları istismara cəlb edənlər tez-tez KİV-də yalançı elanlar verir, internetdə saxta saytlar açır, bəzən isə, saxta işə götürmə agentlikləri də yaradırlar. Onlar uşaq dayələri, xəstə baxıcısı, evlərə yardımçı, ofisiant, model, rəqqasə və s. işlər təklif edirlər. Verilən vədlər çox inandırıcı və cəlbedici olur. İnsanları belə işlərə cəlb edənlər, onların yaxın dost, rəfiqə və hətta qohumları da ola bilərlər.

**Qurban hansı təzyiqlərlə üzləşir?**

Qurban azad hərəkət edə bilmir, onu adətən borc tələsinə salır və işləyərək, onun üçün ödənilən pulların əvəzini çıxmağa məcbur edirlər. Nəticədə, pulun miqdarı getdikcə artır, üstünə faizlər, qurbanın saxlanılması üçün xərclənən pullar, müxtəlif cərimələr gəlir. Qurbanın sənədləri alınır, sərbəst hərəkət etməsinə və yaxınları ilə ünsiyyət qurmasına qadağalar qoyulur.

# Xalçalarda yaşayan tariximiz...

*Yeganə BAYRAMOVA*

## 5 may "Xalçaçı Günü"dür



Azərbaycanlı ailəsinin evini, məişətini xalçasız təsəvvür etmək qeyri-mümkündür. Çünki xalça bizim üçün hər zaman müqəddəs olub. İlk vaxtlar xalça evlərdə sadəcə bir məişət əşyası kimi istifadə edilirdi. Ancaq sirli və əsrarəngiz naxışları özündə əks etdirən xalçalar sonralar xalqımız tərəfindən təkmilləşdirilərək sənət səviyyəsinə yüksəldilib. Xalqımız gördüyünü, bildiyini, yaşadığı dövrün tarixini xalçalara köçürüb. Reallıq budur ki, dünyanın heç bir ölkəsində xalçaçılığa belə diqqət göstərilmir.

Keçmişlə bu günümüz arasında körpü rolunu oynayan, min illərdir öz əhəmiyyətini itirməyən xalçaçılıq sənəti müxtəlif mədəniyyətlərin təsirinə baxmayaraq, xalqımızın həyatında dəyişməz yerini qoruyub saxlayıb. Xalçaçılıq sadəcə mədəniyyət tariximizin deyil, bütövlükdə ölkəmizin tarixinin öyrənilməsi üçün zəngin bir xəzinədir.

Hər il mayın 5-i ölkəmizdə "Xalçaçı Günü" kimi qeyd olunur. Ölkəmizdə yüz illərdir xalça toxunsa da, əvvəllər xalçaçıların heç vaxt öz peşə bayramlarını qeyd etdiyi gün olmamışdı. Lakin artıq səkkiz ildir ki, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin yaradıldığı gün - mayın 5-i "Xalçaçı Günü"dür.

Azərbaycan Milli Xalça Muzeyinin mətbuat katibi Ülvinə Fərzəliyeva "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, ölkəmizdə "Xalçaçı günü" ərəfəsində mayın 3-dən etibarən bir sıra tədbirlə keçirilməyə başlayıb: "Mayın 3-də, saat 17:00-da Azərbaycan Milli Xalça Muzeyində Əməkdar rəssam Taryer Başirovun 65 illik yubileyi münasibətilə "Xalçalarda yaşayan tariximiz" adlı fərdi sərginin açılışı baş tutdu. Sərgi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Xalça Muzeyinin birgə təşkilatçılığı ilə keçirilir. "Xalçaçı Günü" ərəfəsində keçirilən sərgidə müəllifin ornamental, portret, süjetli xalçaları, xalça eskizləri, eləcə də orijinal tərzdə işlənmiş nəbati və həndəsi naxışlı, süjetli çətənləri nümayiş olunacaq. Sərgi mayın 12-dək davam edəcək".

Ü.Fərzəliyeva qeyd edib ki, milli mədəniyyətimizin inkişafında böyük rolu olan Birinci xanım Mehriban Əliyeva da xalçaçılığın yaşadılmasına öz dəyərli töhfələrini verir: "Xalçaçıların problemlərinin aradan qaldırılmasında, onların fəaliyyət imkanlarının genişləndirilməsində, nailiyyətlərinin beynəlxalq miqyasda təbliğində Mehriban xanımın xidmətləri misilsizdir".

Mətbuat katibinin sözlərinə görə, Prezident Azərbaycanda xalçaçılıq sənətinin ölkə iqtisadiyyatındakı rolunu hər zaman yüksək dəyərləndirib: "Ölkə başçısının diqqət və qayğısı ilə 2016-2020-ci illərdə "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin 21 filialı yaradılaraq fəaliyyətə başlayıb. Səhmdar Cəmiyyətin ilk filialı 2016-cı ilin noyabr ayında Füzuli rayonunun Horadiz qəsəbəsində açılıb. 2017-ci ildə Ağdam, Şəmkir, Tovuz, Ağstafa, Qazax, İsmayıllı, Qəbələ, Quba və Xaçmaz rayonlarında xalça istehsalı emalatxanaları yaradılıb. 2018-ci ilin sonunda səhmdar cəmiyyətin daha 10 xalça emalatxanasının-Naxçıvan, Nardaran, Abşeron, Kürdəmir, Goranboy, Tərtər, Şabran, Qobustan, Cəbrayıl, Lənkəran filiallarının tikintisi başa çatdırılaraq istehsala başlanılıb. 2020-ci ildə isə İsmayıllı şəhərində ikinci xalça emalatxanası öz qapılarını toxucuların üzünə açıb. Bu emalatxanaların hər birində 150 nəfər toxucunun, 14 nəfər inzibati-təsərrüfat işçisinin çalışması üçün yüksək iş şəraiti yaradılıb, onların rahatlığının təmin olunması üçün nəqliyyat vasitəsi ayrılıb".



# Onların qayğıya ehtiyacı var...

*Yeganə BAYRAMOVA*

Heç kim əlil olmağı seçmir. Əlillik nə irsən, nə də yoluxucu xəstəlik sayılır. İnsanın iradəsi xaricində olan əlillik anidən və bir göz qırpımında baş verir. Sığortalanması heç cür mümkün olmayan bu hal yaş, din, dil, irq fərqi də tanımır. İstənilən anda, zamanda və məkanda hamımızın əlil olma ehtimalı var. Əlillik və şikəstlik müxtəlif yollarla yaranır: anadangəlmə, müharibələr, yol-nəqliyyat hadisələri, istehsalat qəzaları, xəstəliklər nəticəsində qazanılmış əlillik və şikəstlik... Ümumiyyətlə, əlillər hər cəmiyyətdə ən həssas təbəqə sayılırlar. Elə buna görə də bütün dünyada fiziki imkanları məhdud olan insanlara dövlətlər və cəmiyyətlər səviyyəsində qayğı göstərilir, onların reabilitasiyası, məşğulluqlarının təmin olunması istiqamətində konkret addımlar atılır.

Fiziki və əqli qüsurlu insanlar tarix boyu bütün ictimai formasiyaların diqqətini cəlb edib. Müxtəlif dövrlərdə dövlət tərəfindən bu məsələyə fərqli prizmalardan yanaşılsa da, fiziki və əqli qüsurlu insanlar cəmiyyətin daim diqqət mərkəzində olub. Onlara cəmiyyətin böyük əksəriyyəti qayğı ilə yanaşıb, imkan dairəsində onlara yardım etməyə çalışıblar.

Yeri gəlmişkən, mayın 5-i Əlillərin Hüquqlarının Beynəlxalq Müdafiəsi Günüdür. Bu gün Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının qərarı ilə 1992-ci ildən etibarən hər il mayın 5-i bütün dünyada qeyd olunur.

Bu gün sivil ölkələrin yol infrastrukturları qurularkən əlillər də birmənalı olaraq nəzərə alınır. Onların rahat hərəkəti üçün ictimai nəqliyyatlarda xüsusi vasitələr nəzərdə tutulur. Ölkəmizdə də bu məsələyə xüsusi diqqət yetirilir. Məsələn, Azərbaycana xaricdən gətirilən ictimai nəqliyyatların içərisində əlillərin düşüb-çıxması üçün şərait qurulub.

**Yer kürəsində nə qədər əlil insan var?**

Dünyada əlil, həmçinin əqli və fiziki cəhətdən qüsurlu insanların sayı barədə müxtəlif rəqəmlər mövcuddur. BMT-nin verdiyi məlumata əsasən hazırda Yer kürəsində təxminən 350-400 milyon nəfərə yaxın fiziki və əqli qüsurlu insanlar, o cümlədən sonralar müxtəlif hadisələr nəticəsində zədələnərək əlil olan insanlar var. İnkişaf etmiş dövlətlər əlillərin, həmçinin fiziki və əqli qüsurlu insanların sosial müdafiəsi və onların hüquqlarının qorunması üçün hər il milyardlarla dollar vəsait ayırırlar. Buna paralael olaraq müxtəlif ictimai təşkilatlar və xeyriyyə fondları tərəfindən də əlillərin, fiziki və əqli qüsurlu insanların müalicəsi, istirahətlərinin təşkili, işlə təmini və onların cəmiyyətə inteqarasiyası üçün böyük həcmdə vəsaitlər xərclənir. Bu məsələ Azərbaycanda da diqqət mərkəzindədir. Ölkəmizdə əlillərin sosial müdafiə, hüquqlarının qorunması və cəmiyyətə inteqrasiyası önəmli vəzifələrdən biridir.

Fiziki qüsurlu şəxsləri cəmiyyətə qazandırmaq insanların öz əllərindədir. Onlara adi insan kimi yanaşmaq, onlara yazığı gəldiyini göstərməyib əksinə, normal söhbət etmək, birlikdə əylənmək, hətta evlənmək belə müsbət haldır. Nəticədə heç kimin gələcəkdə nə yaşayacağı bəlli deyil.




# Bakcell çempion şahmatçı Ülviyyə Fətəliyevanı təbrik etdi

Bakcellin Baş İcraçı Direktoru, Klaus Mueller Azərbaycanın ilk qadınlar arasında Avropa çempionu şahmatçısı Ülviyyə Fətəliyevanı möhtəşəm qələbə münasibətilə təbrik etdi.

Bakcell baş ofisində keçən görüşdə qrossmeyster Ülviyyə Fətəliyevaya qızıl Bakcell nömrəsi və 1 illik balans hədiyyə edildi və son model smartfon təqdim olundu. Şahmatçımızın qələbəsinin bütün Azərbaycanı qürurlandırdığını bildirən Bakcell Baş İcraçı Direktoru Ülviyyə Fətəliyevaya karyerasında uğurlarının daimi olmasını diləyib.

Görüş zamanı Bakcellin yeni brend kimliyindən danışan Klaus Mueller bildirib ki, loqodakı 5 dinamik fiqur gələcəyə yol açan bir ulduz yaradır. Bu ulduz insanları, məkanları və dəyərli anları bir-birinə bağlayır və çempion şahmatçımızın bugünkü qələbəsi məhz belə anlardandır.

## İdman

### Bədii gimnastika üzrə Avropa Kuboku start götürüb




Bakıda ilk dəfə keçirilən bədii gimnastika üzrə Avropa Kubokuna start verilib.

AZƏRTAC xəbər verir ki, Milli Gimnastika Arenasında təşkil edilən yarışda 37 ölkəni təmsil edən 160 idmançı bacarığını nümayiş etdirir.

Azərbaycanı turnirdə fərdi proqramda Zöhrə Ağamirova və Kamilla Seyidzadə, qrup hərəkətləri proqramında isə Zeynəb Hümmətova, Güllü Ağalarzadə, Darya Sorokina, Yelizaveta Luzan, Ləman Əlimuradova və Kamilla Əliyevadan ibarət komanda təmsil edir.

Üçgünlük kubokun proqramına əsasən böyük fərdi gimnastlar "çarpaz-qarşılaşmalar" sistemi ilə mübarizə aparırlar. Bununla da onlar təsnifat yarışlarından sonra final mərhələsinə yüksəlmək üçün bir-biriləri ilə yarışacaqlar.

Avropa Kubokunda qaliblər fərdi və çoxnövçülük proqramında, eləcə də komanda hesabında müəyyənləşəcək. Qaliblərə medal və hədiyyələrlə yanaşı pul mükafatı da veriləcək. Çarpaz qarşılaşmalarda qalib 8000, ikinci yer 5000, üçüncü yer 3000, dördüncü yer 2000, 5-8-ci yerlərin hər biri 1000, 9-16-cı yerin hər biri 500 avro qazanacaq. Böyüklərdən ibarət qrup hərəkətləri komandaları arasında çoxnövçülük üzrə qalib 5000, gümüş medal qazanan 3500, bürünc medalçı 2500 avronun sahibi olacaq. Gənclərin yaş qrupları yarışında komanda hesabında qalibi 1300, ikinci yeri tutanı 1000 və üçüncü yerin sahibini isə 700 avro gözləyir.

### "Prezident Kuboku-2024": Azərbaycan avarçəkənləri növbəti medalı qazanıblar

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Prezident Kuboku-2024" beynəlxalq reqatası davam edir.



AZƏRTAC xəbər verir ki, Mingəçevirdəki "Kür" Olimpiya Tədris-İdman Mərkəzində keçirilən turnirin 3-cü günündə İbrahim Məmmədzadə və Sərhad Fərhadlı (2010-2011) ikinəfərlik kayak qayığında 200 metr məsafəyə yarışda bürünc medal qazanıblar.

Bununla da Azərbaycanın qazandığı medalların sayı 5-ə çatıb.

Qeyd edək ki, "Prezident Kuboku-2024" reqatasına mayın 3-də yekun vurulacaq.

### Bakıda beynəlxalq şahmat festivalı keçiriləcək

Azərbaycan Şahmat Federasiyası (AŞF) ilə Gənclər və İdman Nazirliyinin birgə dəstəyi ilə növbəti dəfə "Baku Open - 2024" beynəlxalq şahmat festivalı təşkil ediləcək.

AŞF-nin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Beynəlxalq Şahmat Federasiyasının (FIDE) 100 illiyinə həsr edilən turnir İsveçrə sistemi üzrə 9 turdan ibarət olacaq. İştirakçıların son siyahısı iyunun 15-dək müəyyən ediləcək.

Bakı İdman Sarayının ev sahibliyi edəcəyi festivalın ümumi mükafat fondu 50 000 ABŞ dollarına bərabərdir.

Qeyd edək ki, iyunun 29-da start götürəcək "Baku Open - 2024" beynəlxalq şahmat festivalı iyulun 7-də yekunlaşacaq.

Turnirin baş hakimi AŞF-nin vitse-prezidenti Faiq Həsənov olacaq.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5612
Sifariş: 983
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova